
Azərbaycanın görkəmli şəxsiyyətləri



ŞİRMƏMMƏD HÜSEYNOV

Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Azərbaycanın görkəmli şəxsiyyətləri

ŞİRMƏMMƏD HÜSEYNOV

(Şirməmməd Ağaməmməd oğlu Hüseynov)

Biblioqrafiya

BAKI – 2024

UOT: 016:37.013-057.4(479.2)
KBT: Я19:33(2A)-8я1

Tərtib edəni: **Lalə Şirinova**

Elmi redaktor: **Kərim Tahirov,**
Professor,
Əməkdar mədəniyyət işçisi

Ön sözün müəllifi: **Rafael Hüseynov**
Akademik

Məsləhətçi və redaktor: **Ülkər Hüseynova**

Şirməmməd Hüseynov (Şirməmməd Ağaməmməd oğlu Hüseynov): biblioqrafiya / Tərt. ed.: L.Şirinova; elmi red. K.Tahirov; ön söz. R.Hüseynov; məsl. və red. Ü.Hüseynova. – Bakı, 2024. – 504 səh.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətlər" seriyasından nəşr etdiyi növbəti biblioqrafiya Azərbaycan jurnalistikasının görkəmli simalarından biri, mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Əməkdar jurnalist, professor, pedaqoq Şirməmməd Hüseynovun anadan olmasının 100 illiyinə həsr edilmişdir. Biblioqrafiyada Şirməmməd Hüseynovun həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, alimin kitabları, dövri mətbuat, dərslik və məcmuələrdə çap olunmuş əsərləri, tərcümələri, həyat və yaradıcılığı haqqında zəngin materiallar toplanmışdır. Biblioqrafiyada həmçinin görkəmli alimin dünyanın ən zəngin milli, dövlət və universitet kitabxanalarında mühafizə olunan əsərləri də öz əksini tapmışdır.

Biblioqrafiya alimlər, tədqiqatçılar, mətbuat işçiləri, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-583-94–6

© Azərbaycan Milli Kitabxanası, 2024

Ministry of Culture
of the Republic of Azerbaijan

Azərbaycan
Milli Kitabxanası

Prominent personalities of Azerbaijan

SHIRMAMMAD HUSEYNOV

(Shirmammad Agamammad oglu Huseynov)

Bibliography

BAKU – 2024

LBC: 016:37.013-057.4(479.2)
UDC: Я19:33(2A)-8я1

Compiled by: **Lale Shirinova**

Scientific editor: **Karim Tahirov,**
Professor,
Honored cultural worker

Author of the foreword: **Rafael Huseynov**
Academician

Advisor and editor: **Ulkar Huseynov**

Shirmammad Huseynov (Shirmammad Agamammad oglu Huseynov): Bibliography / Compiled by L.Shirinova; scientific edit. K.Tahirov; author of the for. R.Huseynov; advisor and edit. U.Huseynov. – Baku, 2024. – 504 p.

The next bibliography published by the National Library of Azerbaijan from the series "Prominent personalities of Azerbaijan" is dedicated to the 100th anniversary of the birth of Shirmammad Huseynov, one of the outstanding figures of Azerbaijani journalism, press researcher, laureate of the Supreme Media Award, Presidential scholarship holder, Honored Journalist, Professor, and Educator. The bibliography contains the main dates of Shirmammad Huseynov's life and activities, opinions of prominent figures about him, the scholar's books, works published in periodicals, textbooks, and magazines, his translations, and rich materials about his life and creativity. The bibliography also includes publications preserved in the richest national, state, and university libraries in the world.

The bibliography is intended for scholars, researchers, librarians-bibliographers, and a wide range of readers.

ISBN 978-9952-583-94–6

© Azerbaijan National Library, 2024



Министерство Культуры
Азербайджанской Республики



Выдающиеся деятели Азербайджана

ШИРМАМЕД ГУСЕЙНОВ

(Ширмамед Агамамед оглу Гусейнов)

Библиография

БАКУ – 2024

УДК: 016:37.013-057.4(479.2)
ББК: **Я19:33(2А)-8я1**

Составитель: **Лала Ширинова**

Научный редактор: **Керим Тахиров,**
Профессор,
Заслуженный работник культуры

Автор предисловия: **Рафаэль Гусейнов**
Академик

Консультант и редактор: **Улькяр Гусейнова**

Ширмамед Гусейнов (Ширмамед Агамамед оглы Гусейнов): библиография / Сост.: Л.Ширинова; науч.ред. К.Тахиров; автор пред. Р.Гусейнов; консуль. и ред: У.Гусейнова. –. Баку, 2024. – 504 стр.

Очередная библиография из серии «Выдающиеся деятели Азербайджана», изданная Национальной библиотекой Азербайджана, посвящена выдающемуся азербайджанскому Заслуженному журналисту, доктору филологических наук, профессору, деятелю печати, педагогу, исследователю, учёному-исследователю, Президентскому стипендиату, лауреату премий «Золотое перо», «Г.Зардаби», «Высшей медиапремии», кавалеру ордена «Шараф» Ширмамеду Гусейнову. Библиография включает основные даты жизни и деятельности Ширмамеда Гусейнова, высказывания выдающихся личностей о нем, книги ученого, произведения, опубликованные в периодических изданиях, в учебниках и хрестоматиях, переводы, а также литературу о его жизни и творчестве. Библиография также отражает труды талантливого уьенного, хранящиеся в самых крупных и фундаментальных национальных, государственных и университетских библиотеках мира.

Библиография предназначена для ученых, исследователей, библиотекарей-библиографов и широкой читательской аудитории.

ISBN 978-9952-583-94–6

© Национальная Библиотека Азербайджана, 2024

Ş.A.Hüseynovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında jurnalist kadrların hazırlanmasında xidmətlərinə görə Şirməmməd Ağaməmməd oğlu Hüseynov “Şərəf” ordeni ilə təltif edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2014-cü il

О награждении орденом
«Шараф» Ш.А.Гусейнова:

Распоряжение Президента Азербайджанской Республики

Руководствуясь пунктом 23 статьи 109 Конституции Азербайджанской Республики, постановляю:

За заслуги в подготовке журналистских кадров в Азербайджанской Республике наградить Ширмамеда Агамамед оглу Гусейнова орденом «Шараф».

Ильхам Алиев
Президент Азербайджанской Республики

город Баку, 16 декабря 2014 года.

Xalqın mənəvi sağlamlığı, maddi rifahı hər şeydən əvvəl ziyalılardan asılıdır. Mənəvi sağlamlığın dərmanı və təminatçısı isə həqiqətdir, sosial ədalətdir, daimi tərəqqiyə ümumbəşəri qayəyə əsaslanan məqsəddir və idealdır.

Şirməmməd Hüseynov,
Əməkdar jurnalist,
Professor

Göstərici haqqında

Milli Mətbuat tariximizin görkəmli tədqiqatçısı, Əməkdar jurnalist, professor, mətbuat xadimi, pedaqoq, tədqiqatçı alim, prezident təqaüdçüsü, "Qızıl qələm", "Həsənbəy Zərdabi", "Ali Media" mükafatları laureatı, "Şərəf" ordenli Şirməmməd Ağaməmməd oğlu Hüseynovun anadan olmasının 100 illik yubileyi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından növbəti fundamental biblioqrafiya tərtib etmişdir.

Professor Şirməmməd Hüseynov milli jurnalistikamızın zəngin tarixi irsinin yorulmaz tədqiqatçısıdır. Azərbaycanda ali jurnalistika təhsili və elminin inkişafının 65 illik bir dövrü Şirməmməd Hüseynovun adı və məhsuldar elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Jurnalistikamızın, jurnalist nəslinin təəssübünü çəkmək, milli mənafe və milli dəyərlərimizin keşiyində dayanmaq onun publisistikasının aparıcı istiqamətlərindən biri olmuşdur. O, milli məfkurəmizin böyük simaları M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, Ə.Ağayev, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə və başqa mütəfəkkirlərin zəngin irsini, milli tərəqqi, istiqlal düşüncəsi ilə bağlı ölməz fikirlərini böyük fədakarlıqla toplayaraq abidə nəşrlər ortaya qoymuşdur. Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Professor Şirməmməd Hüseynov haqqında 2004, 2009, 2014-cü illərdə biblioqrafik informasiyaları özündə əks etdirən vəsaitlər tərtib edilmişdir (Şirməmməd Hüseynov: Biblioqrafiya / tərtib edəni Nüşabə Abbaszadə. – Bakı: Bakı Universiteti, 2004. – 88 s.; Şirməmməd Hüseynov: Biblioqrafiya / tərtib edəni Aygün Əzimova. – Bakı: Bakı Universiteti, 2009. – 89 s.; Şirməmməd Hüseynov: Biblioqrafiya / tərtib edəni Aygün Əzimova. – Bakı: Bakı Universiteti, 2014. – 120 s.).

Azərbaycan Milli Kitabxanası Şirməmməd Hüseynovun geniş və çoxşaxəli yaradıcılığını nəzərə alaraq 100 illik yubileyi münasibətilə tərtib etdiyi bu yeni biblioqrafiya əvvəlki göstəricilərdən fərqli olaraq yenidən işlənmiş, daha da təkmilləşdirilmiş, yeni quruluşda tərtib olunmuşdur. Professorun çoxşaxəli yaradıcılığını geniş oxucu kütləsinə çatdırmaq məqsədilə hazırlanmış biblioqrafiyada

materiallar 1955-ci ildən 2024-cü ilədək olan dövrü əhatə edir. Burada görkəmli alimin kitabları, məcmuələrdə, dövri mətbuatda çap olunmuş əsərləri, həyat və yaradıcılığı haqqında materiallar toplanmışdır. Azərbaycan və rus dillərində tərtib edilmiş bu biblioqrafiyada materiallar xronoloji ardıcıllıqla verilmiş, daxildə isə əlifba sırası üzrə qruplaşdırılmışdır.

Biblioqrafiyada alimin dünyanın ən zəngin kitabxanalarında mühafizə olunan əsərləri "Şirməmməd Hüseynovun əsərləri dünya milli və universitet kitabxanalarında" bölməsində öz əksini tapmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda Şirməmməd Hüseynovun əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri tərtib edilmişdir.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, fikir və təkliflərini Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ–1000, Bakı şəh., Xaqani küç. 57
E–mail: contact@anl.az

About the index

On the occasion of the 100th anniversary of the birth of Shirmammad Agamammad oglu Huseynov, an honored journalist, candidate of historical sciences, professor, media figure, educator, research scientist, presidential scholarship holder, laureate of the "Golden Pen", "H. Zardabi", "Ali Media" awards, holder of the "Sharaf" order, the Azerbaijan National Library named after M.F. Akhundov has compiled another fundamental bibliography from the "Prominent personalities of Azerbaijan" series.

Professor Shirmammad Huseynov is a tireless researcher of the rich historical heritage of our national journalism. A 65-year period of development of higher journalism education and science in Azerbaijan is associated with the name of Shirmammad Huseynov and his fruitful scientific and pedagogical activity. One of the leading directions of his journalism was to draw attention to the prejudices of our journalism, the generation of journalists, to stand guard over our national interests and national values. He collected the rich heritage of the great figures of our national ideology, M.A. Rasulzadeh, U. Hajibeyli, A. Aghayev, A. Huseynzadeh, O. F. Nemanzadeh and other thinkers with great dedication, and published monumental publications. Shirmammad Huseynov is the author of more than 30 books and monographs on press studies, and more than 800 scientific and scientific-journalistic articles.

Materials reflecting bibliographic information about the professor were compiled in 2004, 2009, and 2014 (Shirmammad Huseynov: Bibliography / compiled by Nushaba Abbaszadeh. – Baku: Baku University, 2004. – 88 p.; Shirmammad Huseynov: Bibliography / compiled by Aygun Azimova. – Baku: Baku University, 2009. – 89 p.; Shirmammad Huseynov: Bibliography / compiled by Aygun Azimova. – Baku: Baku University, 2014. – 120 p.).

This new bibliography, compiled by the National Library of Azerbaijan on the occasion of Shirmammad Huseynov's 100th anniversary, considering his extensive and multifaceted creativity, has been revised, further improved, and compiled in a new structure, unlike the previous indicators. The materials in the bibliography, prepared in order to convey the professor's multifaceted creativity to a wide audience, cover the period from 1955 to 2024. The scientist's books, works

published in collections and periodicals, and materials about the writer's life and creativity have been collected here. The materials in this bibliography, compiled in Azerbaijani and Russian, are given in chronological order and grouped internally in alphabetical order.

The bibliography reflects the scientist's works preserved in the richest libraries of the world in the sections "Shirmammad Huseynov's works in the world's national and university libraries".

In order to facilitate the use of the resource, alphabetical indexes of Shirmammad Huseynov's works and the authors who wrote about them have been compiled.

We would like to express our sincere gratitude in advance to the experts and readers for their comments and suggestions, and kindly ask them to send their opinions and recommendations to the National Library of Azerbaijan.

Address: AZ-1000, Baku, Khagani str. 57.
E-mail: contact@anl.az

Об указателе

К столетию со дня рождения Заслуженного журналиста , кандидата исторических наук, профессора, деятеля печати, педагога, ученого-исследователя Президентского стипендиата, лауреата премий «Золотое перо», «Г.Зардаби», «Высшей медиапремии», кавалера ордена «Шараф» Ширмамеда Гусейнова Азербайджанская Национальная Библиотека подготовила очередную фундаментальную библиографию из серии «Выдающиеся деятели Азербайджана».

Профессор Ширмамед Гусейнов – неутомимый исследователь богатейшего исторического наследия национальной журналистики. 65-летний период развития высшего журналистского образования и науки в Азербайджане тесно связан с именем Ширмамеда Гусейнова и его плодотворной научной и педагогической деятельностью. Одним из ведущих направлений его публицистики являлось привлечение внимания к отечественной журналистике, защита журналисткой чести и достоинства, ограждение отечественной журналистики от чужеродных и негативных влияний, охрана национальных интересов и национальных ценностей. Колоссальный и самоотверженный труд был проделан им по составлению и публикации основополагающего наследия великих представителей национального самосознания, таких как М.Э. Расулзаде, У.Гаджибейли, А.Агаев, А.Гусейнзаде, О.Ф. Неманзаде и др. Их бессмертные мысли по поводу национального прогресса и независимости были отражены Ш.Гусейновым в фундаментальных печатных изданиях.

Ширмамед Гусейнов является автором более чем 30-ти книг и монографий и более 800-т научных и научно-публицистических статей по истории печати.

В 2004, 2009, 2014 годах о профессоре были составлены материалы, содержащие библиографические сведения (Ширмамед Гусейнов: Библиография / сост. Нушаба Аббасзаде. – Баку: Бакинский университет, 2004. – 88 с.; Ширмамед Гусейнов: Библиография / сост. А.Г.Азимова. – Баку: Бакинский университет, 2009. – 89 с.; Ширмамед Гусейнов: Библиография / сост. Г. Азимова. – Баку: Бакинский университет, 2014. – 120 с.).

Данный библиографический указатель, составленный Национальной

Библиотекой к 100-летию со дня рождения Ширмамеда Гусейнова и полностью отражающий научную деятельность ученого, представляет собой еще более усовершенствованное и значительно обогащенное новыми материалами издание.

Материалы в библиографии, разработанной с целью доведения многогранного творчества профессора до широкого круга читателей, охватывают 1955-2024 годы. Библиография включает труды ученого - книги, статьи, опубликованные в периодических изданиях и сборниках, а также изданную о нем литературу. Материалы в библиографии на азербайджанском и русском языках представлены в хронологическом порядке, внутри же разделов соблюдается алфавитный порядок.

Одним из разделов, повышающих информативность библиографического материала, является раздел «Ширмамед Гусейнов в мировых библиотеках», где представлена информация о трудах ученого, хранящихся в самых авторитетных и признанных библиотеках крупнейших стран мира.

Произведения ученого, хранящиеся в самых крупных и фундаментальных библиотеках мира, представлены в разделах библиографии “Труды Ширмамеда Гусейнова в мировых, национальных и университетских библиотеках мира”.

В целях облегчения пользования библиографическим указателем в конце его представлен алфавитный указатель произведений Ширмамеда Гусейнова и авторов, писавших о нем.

Заранее выражаем благодарность специалистам и читателям, высказавшим свои замечания и предложения по поводу указателя и просим направлять их в Национальную библиотеку.

Адрес: AZ-1000, гор.Баку., ул.Хагани, 57;
E-mail: contact@anl.az

Rafael Hüseynov
AMEA-nın həqiqi üzvü,
Azərbaycan Milli Məclisinin
sədr müavini

Usanmaz vətənsevər və yorulmaz alimin düşüncə dünyasının xəritəsi

O, Azərbaycan müstəqillik mübarizələri və istiqlal düşüncəsinin salnaməçilərindən idi. Unudulmaz alimimiz Şirməmməd Hüseynov millətinin cümhuriyyət quruculuğu tarixi, bu şərəfli və çətin yolda keçdiyi aşırımlar, yetirdiyi qəhrəman şəxsiyyətlər, onların doğurduğu irsi ilk qaynaqlardan öyərənərək bunları yeni nəsillərə çatdırmaq fəaliyyətlərinə gənclik illərində, o arxivlərin qapalı, bu mövzuların yasaq olduğu çağlarda başladı, həmin nəcib işi ömrünün son günlərindək eyni qaynar həvəs və sevgi, yüksək peşəkarlıqla davam etdirdi.

Onun fikridir və bu dördcə kəlmə sözdə həm dərin təvazö, həm çağırış, həm xəbərdarlıq, həm arxayınlıq, əminlik, həm də bir az qınaq var.

"Maraqlananlar üçün faydasız olmaz".

Bu sözləri professor Şirməmməd Hüseynov bir əsrə çatan ömrünün axırlarında, artıq hər kəs tərəfindən canlı klassik kimi qəbul edildiyi çağlarda, millətin şərəf tarixi ilə bağlı apardığı qiymətli araşdırmalardan ibarət məqalələr toplusunu ictimaiyyətə təqdim edərkən lap başda yazırdı.

Və həmin dördcə kəlmə Şirməmməd Hüseynovun hər yazısına, hər tərtib etdiyi topluya, hər hazırladığı kitaba, hər doğurduğu əsərə, hər etdiyi çıxışa, hər apardığı mühazirəyə yığcam önsöz, "bismillah" biçimli bir başlanğıc kimi qavranıla bilər.

Aqil adam idi, yaxşı anlayırdı ki, qəzet səhifələrindən, cild-cild kitablar vasitəsilə xalqa təqdim etdiyi qiymətli yazıların hamı tərəfindən oxunmasına, bilinməsinə ehtiyac varsa da, daha artıq kürəsəlləşdikcə daha çox dəyişən, rəqəmsallaşdıqca kitabı, çap yazılarını mütaliə etmək istəyi tədricən daha ziyadə azalan dünyanın çox yerində olduğu kimi, bizdə də camaatın oxumaq səbri də, şövqü də sönükləşib.

Amma o, inadla öz işini görürdü.

Köhnə əlifbalarda, əl çətin çatan arxivlərdə qalan yazıları qaldırır, indi işlək olan əlifbamıza köçürür, oxuyacaq kəslərin anlamasını asanlaşdırmaqdan ötrü ayrı-ayrı dövriyyədən çıxmış və başa düşülməsi əngəlli ola biləcək kəlmələrin lüğətini də əlavə edir və təqaüdündən bu məqsədlə ayırdığı vəsaitin üstündən müəyyən məbləği götürərək bu qəbil yazılarını əlyazmadan oxuyub çap edən kompüterçiyə taksi ilə göndərirdi.

Ertəsi gün oradan yenə həmin yolla qayıdan yazını bu dəfə yenə təzədən oxuyub təshih edəndən sonra taksi haqqını ödəyərək yollayırdı redaksiyalara.

Savabına da heç kəsi şərik etmək istəmirdi.

Bir dəfə təklif etdim ki, sürücümü göndərim, gəlib həmin aparıb-gətirmə əməliyyatlarında yardımçınız olsun.

Stalin dövrünün təmiz kommunistlərinin ifrat prinsipiallığı ilə etiraz etdi: "Bəs birdən bu yazıları apardığı zaman sənin idarənin həmin sürücü tərəfindən görülməli işləri necə olsun?"

Yalnız gərgin alim əməyi ilə deyil, həm də ağır fəhlə zəhməti ilə araya-ərsəyə gələn bu yazıları 10 adamdan birinin oxuyub-oxumayacağına şəkki olsa da, usanmadan, bezmədən çalışırdı.

Çünki həm də bu işlərin əhəmiyyətinə inanırdı, həm də əmindi ki, gec-tez mütləq bu yazıları oxuyub həzm edənlər artacaq, həm də bilirdi ki, özü indi bu işləri yerinə yetirməsə, bir ayrısının onlara vaxt və ürək sərf edəcəyi ehtimalı zəifdir.

İşləyirdi və nəticəni xalqa təqdim etməzdən öncə xəbərdarlığını da yaddan çıxarmırdı ki, bunlarda fayda var!

Qarşına qoyulan məhsulda xeyir olduğunu sənə bəyan edirlərsə, yəqin ki, sən də maraq göstərməli, ona doğru can atmalısan.

Amma bu müdrik kişi dərk edirdi ki, maraqlanmaya da bilərlər, biganə qalanlar da olacaq.

Ona görə də bir az eyhamla (bunu yazanda gözümün önündə istər-istəməz Şirməmməd müəllimin kinayəqarışıq xeyirxah təbəssümlə işıqlanan çöhrəsi canlanır) deyirdi ki, əziyyətə qatlaşıb, heç olmazsa, öz faydanız üçün bu irsə maraq göstərin.

Adətən, ata balası üçün belə canıyananlıq edir.

Adətən, valideyn balalarından hansının hansı ağıl səviyyəsinə, hansı qabiliyyətə malik olmasından asılı olmayaraq, hər birinin bilməli olduqlarını öyrənməsinə bu sayaq nəvazişlə, qayğıkeşliklə yanaşır.

Şirməmməd müəllimin yaşı elə həddə idi ki, tay-tuşlarının, simsarlarının, ürək dostlarının əksəri getmişdi.

Bu yazılar onunçün həm də daim özü qəbildən olan məsləkdaşlarla təmas qurmaq fürsəti idi.

Sənin lə bir masa arxasında oturub mülahizə, sevinc, dərd, arzu, ümid bölüşən müasirlər tükənibsə, gərək Həsən bəy Zərdabi ilə, Məhəmməd Əmin Rəsulzadə ilə, Üzeyir Hacıbəyli ilə, Əlimərdan bəy Topçubaşı ilə, Əhməd bəy Ağayevlə... həmsöhbət olasan.

Özün həmsöhbət ol, yüngülləş, bu feyz digərlərinə də nəsib olsun deyə onların köhnə, fəqət köhnəlməz sözlərini bugündəkilərə və sabahdakılara da çatdır.

Professor Şirməmməd Hüseynov bu amalın, bu əxlaqın yiyəsi, bu idealın daşıyıcısı idi!

Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində müdam minnətdarlıqla düşünməliyik.

XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar səhnə yaşanıb ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər.

Və 1920-ci il aprel ayının 27-si Azərbaycan parlamentinin – Məclis-i Məbusanının son iclası.

Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Açaq qapıları, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli ağlayır.

O əvvəlki göz yaşı – Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı – fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və bu millət heç vaxt nə birinci, nə ikinci göz yaşlarını unuda bilər.

Yaxşı millət olmağın yolu yaddaşdan, yurdun taleyi, müqəddəratı ilə bağlı həlledici anları və şəxsiyyətləri unutmamaqdan keçir.

Ömrü boyu, xüsusən də təzədən qayıtmış istiqlalımızın açdığı meydan sayəsində 1990-cı illərin lap əvvəllərindən başlayaraq daha güclü şəkildə Şirməmməd müəllim bu şərəfli tarixin salnaməsini millətimizə təqdim etmək missiyasını özünə şərəf borcu seçdi.

Daş daşımaq zəhmətlərin ən ağırı, fəhlə işlərinin ən çox güc istəyənlərindəndir.

Amma adi daşı daşımağa nə var!

Daş yükünü çəkməyə nə xüsusi hərarəti, ilhamı, sevgisi olan bir ürək gərəkdir, nə yüksək peşəkar qabiliyyətlər, ağıl, istedad.

Bütün bunlarsız da hər kəs yaxşı-yaman daş daşımaq imkanındadır.

Vətənin daşını daşıya bilmək isə ağırlardan-ağır əməkdir və burada ortabab, alababat söhbətinə yer yoxdur.

Millət naminə nə edirsənsə, ali səviyyəli olmalıdır.

Vətənin daşını çiyində yox, ürəkdə daşıyarlar!

Vətənin daşını çəkə bilməkçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Üstəlik, ürəyində gərək xalqına sonsuz sevgi daim nəbz kimi vura, qan kimi damarlarında axa.

Millətə və torpağa sədaqət, fədakarlıq, dözüm, ardıcıllıq, təpər, görəcəyin işlərin böyüklüyü və kiçikliyindən asılı olmayaraq, bir saniyə belə səngiməyən məsuliyyət, cavabdehlik hissi, üstəlik də əməlinin bəhrələrinin hər kəsin qəlbinə yata bilməsindən ötrü bilik, zövq, şövq, qaynar həvəs, yorulmazlıq və yüksəkdən-yüksək peşəkarlıq.

Şirməmməd Hüseynovun kitablarının bir qisminin sadəcə, adlarını sadalamaq onların hər birinin (və qovuşaraq hamısının) milli sərvət olduğunu anlamağa bəs edər: "Milli haqq və ədalət axtarışında" (Bakı, "Adiloğlu", 2004), "Mətbu irsimizdən səhifələr" (Bakı, "Çənlibel", 2007), "Publisistik miras və müasirlik" (Bakı, "Elm", 2007), "Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr" (Bakı, "Elm", 2009), "Üzeyir Hacıbəyli. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri" (İki cilddə, Bakı, "Elm", 2009, 2010), "Məhəmməd Əmin Rəsulzadə. Əsərləri" (Beş cilddə, Bakı, "Təhsil", 2014), "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə, Bakı, "Qanun", 2012, 2015, 2016, 2017)...

İnsanlara "Zəbur" da, "Tora" da, "İncil" də, "Tövrat" da, "Quran" da gərəkmiş ki, o müqəddəs kitablar yaranıb və bəşərin ayrılmaz yol yoldaşına çevrilib.

O kitablar üz tutduqları, etiqada dəvət etdikləri insanlara bütün başqa məziyyətlərindən savayı kamil insan, yaxşı adam olmağın əbədi dərslərini verirlər

Lakin xalqların və millətlərin onları yaxşı xalq, kamil millət edəcək kitablara da həmişə ehtiyacı olub, bu ehtiyac heç vaxt da tükənməyəcək. Şirməmməd Hüseynov bu qəbil kitabları xalqınkı, millətinki etməklə məşğul idi.

Gözdən iraq düşənləri təzədən qaytarırdı, yazılmalı olanları yazırdı.

Bu kitabların hər birinin yaranması ictimai-siyasi həyatımızda, düşüncə mühitimizdə necə qarşılanmasından asılı olmayaraq, millət tarixinin çox önəmli hadisələri idi.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşadı, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürdü və indi onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşadı, Azərbaycana çox dəyərli balalar bağışladı.

Və ilk gəncliyindən əli qələmli oldu, durmadan işlədi, məqalələr, dissertasiyalar, kitablar yazdı.

Valideynə balalarından hansını daha çox istədiyini söyləmək necə cavabsız qədər çətin sualdırsa, yaradıcı adama da hansı əsərinin daha üstün olduğunu müəyyənləşdirmək bir o qədər qəliz məsələdir.

Şirməmməd müəllimin isə, mənim zənnimcə, ömrünün şah əsəri kitabı "Parlament hesabatları"dır.

Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər sadaladığım və adını çəkmədiyim digər kitabları da var, amma bu üçcildliyin sanbalı, məna yükü, mahiyyəti büsbütün başqadır.

Uzaq 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır.

XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir.

Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı.

Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi.

Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə – XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər.

Onlar salnaməçiliyin Azərbaycanda buçağacan ortada olmayan nümunəsini ortaya qoydular.

Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayıbərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi.

İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamınınkılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi.

Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə – məlumdan yaranan büsbütün yeni naməlum idi.

O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri.

Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxada qalmış şanlı, keşməkeşli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bitkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə lüzum var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi.

İkincisi isə, həmin nüsxələrdən indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı varsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi.

1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov – bu müstəsna alimimiz, bu cəfakeş müəllimimiz, bu təpədən-dırnağa işıq olan ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırladı.

Həmin yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirdi və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlmişdi.

Ömrü uzunu bu barədə düşünmüşdü, ömrü boyu bu hadisələri və adları içərisində yaşatmışdı. Və öz etirafı idi ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada məxfi arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, kilidli qapısının açılacağı arzusu və intizarı ilə təhlillərini aparırmış.

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş, Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları XXI yüzildə "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq Ustadın xeyirxah və xilaskar əlləri ilə bizə qayıtdı.

Bu yazıları dinlədikcə mat qalmaya bilmirsən.

Bir tərəfdə heyranlıq və heyrət doğuran istiqlalçı, qurucu babalarımızın pak amal uğrunda fədakar mübarizələri, mətinliyi, mərdanəliyi, tələtümlü əyyamlarda söylədikləri sərrast sözləri və çağırışlarıdırsa, digər tərəfdə ikiqat heyranlıq və ikiqat heyrət oyadan Şirməmməd müəllimin, illərcə valideynlərinə borcunu qaytarmaq üçün münasib girəvə gözləmiş fərasətli, sadiq bir övladın məhəbbəti və canıyananlığı ilə bu irsi belə ali peşəkarlıqla canlandırmasıdır.

Mən az öncə yanılaraq yox, elə qəsdən "oxuduqca" yerinə "dinlədikcə" yazdım.

Əslində, bu, "dil (indiki halda "qələm") çaşıb düzünü söylər" məsəlinin dürüstlüyünə əlavə sübutdur.

Şirməmməd müəllimin təqdimatındakı bu yazıları səhifə-səhifə çevirdikcə biixtiyar tarixə dalırıq və həmin qərib illərin axarındakı səsləri aydınlığı ilə eşidirik.

Parlament iclaslarının salnaməsindən Həsən bəy Ağayevin, Əhməd bəy Pepinovun, Əhməd Cavadın... səsini, onlara əleyhdar olanların sədalarını eşidirik.

Əliheydər Qarayevin də səsi gəlir ordan, Məhəmməd Əmin Rəsulzadənin də.

O səsləri indi – XXI əsrdə eşidirsən və anlayırsan ki, hansı girdablardan, hansı yarğanlardan adlamışıq, ayrıntıları ilə dərk edirsən ki, millətin tarixində millətin, yurdun taleyinə münasibətdə necə tam əks qütblərdə qərar tutmuş insanlar yaşayıb, istiqlal yolumuzda hansı toqquşmalar, çarpışmalar, hansı təzadlı baxışlar olub.

Şahid kəsilirik ki, Azərbaycanın bugünkü istiqbalının, təzədən qayıtmış bu müstəqilliyinin təməlində hansı barışmaz mübarizələr dayanır, bu səadətə gələn yolun başlanğıcında hansı dramatik aylar, günlər, saatlar, dəqiqələr yaşanıb.

Və bu kitablar silsiləsinin ortaya qoyduğu mühüm bir öyüd, vacib bir dərs var.

Bu nəsihət, bu ibrət də ondan ibarətdir ki, o pak insanlara, o qurucu babalara əbədi borcluyuq, onlara hər zaman minnətdar olmalıyıq.

Onlar olmasaydı, bu dövlət olmazdı!

Onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və SSRİ dağılarkən, 15 dırnaqarası müstəqil respublika artıq elə gerçək mənada müstəqil dövlətə çevriləndə biz o sırada olmayacaqdıq.

1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bildiksə, səbəbkar o KİŞİlərdir!

Müstəqilliyin hər bəhrəsindən hər cür bəhrələnənlərə lap aydın olsun deyə bir daha təkrar edirəm: Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız ona görə oldu ki, daha əvvəl cümhuriyyətimiz vardı, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası vardı. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan qurtulmuş sabahımızla borcluyuq.

O üçcildliyin (və Şirməmməd müəllimin bütün fəaliyyətlərinin) bünövrəsində, nüvəsində dayanan ən birinci amil eşqdir.

Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamı, imanı və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o nadir şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryaca ağlın olsa da, əlindən çıxan bəhrənin işığı çatmaz, rəngləri solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Üzeyir bəyin sonrakı nəşrlərdə qırağa qoyulmuş mətbu əsərlərinin birləşdiyi cildlər də, Məhəmməd Əmin Rəsulzadənin qələm və düşüncə yadigarlarından ibarət Şirməmməd Hüseynov "Xəmsə"si də, söz yox, son dərəcə dəyərli və sanballı mətnşünaslıq nümunələridir.

Lakin parlament hesabatlarını əhatə edən üçcildlik bənzəri olmayan mətnşünaslıq abidəsidir.

Nəyə görə mətnşünaslıq abidəsi?

Mətnşünaslıq elmi iynə ucu ilə qaya çapmaq kimi gərgin əmək, alın təri tələb edən ciddi tədqiqat sahəsidir.

Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik.

Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmədov, Turan Həsənzadə, Nəsrəddin Qarayev və bir sıra başqaları çox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin ötkəm mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də korşalmağa, gündəlik təcrübədən qeyb olmağa başaldı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın – ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi.

Əlimərdan bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və

səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdıraraq məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum.

O zaman həmin protokollar nəşr edilməmişdi – hələ 1990-cı illərin başlanğıcı idi.

Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı!

Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış – onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi.

Di gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi bilgin, danışanların buraxdığı müəyyən üslubi səhvləri də yeri düşdükcə əlüstü islah edən stenoqrafistin – tezyazarın da əlindən çıxmış vərəqlərdə yanlışlıqlar az deyil.

Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatları idi.

1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavidə, Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı.

Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin Səfər müəllim sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi.

Doğrudur, əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var.

Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa müəllimin nəzərindən qaça bilməzdi.

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, gen miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer almış başqa yazıları da gətirirdi.

Qəfildən qarşımıza bu məsələlər və mətləblərlə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır.

Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrü isə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür sərişdə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyaniliyi ilə görürük.

Hesabatları ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsallıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ülgüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da ülgü göstərir ki, yaxşı qəzet nədir.

XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıb-solsa da, mahiyyətcə nimdaşlaşmasın, boyatlaşmasın, yeni zamanla da ünsiyyətə girə bilsin.

Və həmin qoca "Azərbaycan" indikilərə bunu da pıçıldayır ki, nəşr olunmaq üçün istənilən məqaləni yazanda fərqində olmalısan, çək-çevir etməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər.

Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar?!

Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bugünün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb.

"Azərbaycan" qəzetində yazıları çıxan Əhməd Həmdi adlı şəxs diqqətini çəkib. Azərbaycanda çox soraqlaşsa, arxivlərə baş vursa da, bir məlumat əldə edə bilməyib. Amma ruhdan, həvəsdən düşməyib, ona ilk gənclik əyyamlarından xas olan inadkarlığı ilə yenə arayıb, yenə axtarıb, yenə soraqlaşıb və suallarına cavabı Türkiyə arxivlərində bulub.

Və bu hərəkəti ilə də Şirməmməd müəllim növbəti dərsini, növbəti öyüdünü verib.

Yəni istiqlal, müstəqillik bizim elə müqəddəs sərvətimizdir, səcdəyə layiq elə mirasdır ki, onun yolunda azacıq belə zəhməti olmuş hər insanı biz həmişə qədirbilənliklə, dualarımızla, sağollarımız, rəhmətlərimizlə anmalıyıq.

Şirməmməd müəllimin artıq bizlərə qalan əziz yadigarlar olan hər çıxışı, hər yazısı, hər kitabı və o sıradan bu cildlər, heykəllərdir.

Tanrı, tale, tarix Şirməmməd Hüseynov kimi fövqəladə insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin.

Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsü sayılası şəxsiyyət idi.

Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bugün arasındakı körpü.

Milləti tarix sınaqlarından zədəsiz çıxaran, həmişə ayaq üstə saxlayan, güclü edənsə məhz tarixi yaddaş, belə sarsılmaz körpülər olub.

Azərbaycan bayrağı bu gün yenə yüksəklərdədirsə, Azərbaycan himni səslənəndə yenə biz iftixar qəhəriylə doluruqsa, bunun ümdə səbəbi odur ki, 70 ilin sovet qadağaları boyunca ayrı-ayrı insanlar bu sevdaya dönük çıxmadı, bu eşqi ürəyində yaşatdı, ziyalılarımız, düşüncə və duyğu adamlarımız sətirlərinin altında olsa da, həmin hisləri yurddaşlarımıza çatdırdı və qoymadı ki, istiqlal yanğısı sozalsın.

Qürbətlərdə, mühacirətlərdə, zillətlərdə yaşaya-yaşaya bu hissiyyatı diri saxladılar və ən qəddar maneələrə rəğmən vətənlərinə bunu çatdırmağa səy elədilər, nail də oldular ki, vətəndaşlarımızın içərisində istiqlal ruhu, müstəqillik istəyi şölələnməkdə davam etsin.

Şirməmməd müəllim də yeni əsrimizin, təzə minilliyimizin başlanğıcından bu üç kitabla və ona bənzər digər cildləri ilə elə ocaq qalayıb ki, bu ocağın istisi və işığı Azərbaycanın çox uzaq gələcəklərinə səmt götürüb, şəksiz, gələcəkdəki yurddaşlarımıza da böyük faydalar verəcəkdir.

...İstiqlalımızın bir əsri tamam oldu, ikinci yüzili başlandı.

Yaşanmış tariximizin hər qırpımı gərək hər an göz önündə ola.

XIII yüzildə rəsədxana açmaq niyyətini hökmdara inandırnaq və anlatmağa cəhd edərkən dahi Xacə Nəsirəddin Tusi söyləmişdi ki, Yerdə rahat yaşamaqçün göyü yaxşı bilmək lazımdır!

1918-ci ilin 7 dekabrında yaradılmış Məclis-i Məbusan bütün tariximizçün fəxr qaynağı olan milli hadisə idi.

Elə həmin səbəbdən mən Azərbaycanın ilk parlamentinin həyatını əks etdirən mükəmməl akademik nəşri görməyi çox istərdim.

Necə təsəvvür edirəm o kitabı?

Xatırlatdığım kimi, 1998-ci ildə Məclis-i Məbusanın stenoqramları həm Azərbaycan, həm rus dillərində, qüsurlu da olsa, nəşr edilib. Düşüncəmə görə, oradakı əsas nöqsan yalnız mətnin bərpası əsnasında buraxılmış ayrı-ayrı səhvlər deyil, həm də tərtib prinsiplərindəki xətalardır. Həmin nəşrdə azərbaycanca cilddə yalnız ana dilində olan çıxışlar verilib, rusca nəşrdə isə rus dilində edilən çıxışlar yer alıb. Demək, o da, bu da natamamdır. Mənsə akademik nəşrdə ana dilində olan mətnlərin arasında rusca olan mətnlərin də dilimizə çevrilərək verilməsini, amma orijinaldakının da cildlərin sonunda, şərhlərlə göstərilməsini məqbul sayıram. Eləcə də həmin akademik nəşrin şərhlər və izahlar, lüğət bölməsi Şirməmməd Hüseynovun kitablarındakı qəzet hesabatları, müxtəlif tamamlayıcı başqa "Azərbaycan" dərcləri, eləcə də ustadın o yazılara verdiyi yozumlar, dəqiqləşdirmələr, aydınlatmalarını artırmaqla dolğunlaşdırıla, daha artıq elmiləşdirilə bilər. Beləcə, biz, nəhayət ki, ilk dəfə olaraq ilk milli parlamentimizin keçdiyi enişli-yoxuşlu, mübarizəli yolun qənaətbəxş mənzərəsini aydınlığı ilə izləmək, öyrənmək fürsəti əldə edirik.

Unudulmaz Bəxtiyar Vahabzadənin Şirməmməd müəllimə həsr etdiyi bir şeiri var – "Körpü çaydan uzaq düşüb".

Elə bu adda yazını "Əkinçi"dən oxuduğu bir məqaləyə əsasən 1993-cü ildə Şirməmməd müəllim yazıbmış.

Millət qayğılarını ürəyinin başında daşıyan Həsən bəy Zərdabi bir vaxtlar intibahın və inkişafın Şərqdən başlandığını, islam və türk dünyasının bəşər tərəqqisinin önündə getdiyini, lakin sonra vəziyyətin dəyişdiyini, yüksəlişlərin Qərbə keçdiyini yazır və belə qənaətə gəlirdi ki, bizim Şərqdə tikdiyimiz körpü yerində durur, lakin daha maarif, inkişaf, elm çayı onun altından axmır, yatağını dəyişərək Qərbə köçüb. Ona görə də xalqına, türk dünyasına, islam Şərqinə səslənirdi ki, körpümüzün çaydan aralı düşməsi düçar olduğumuz bəladır, biz yüksəliş istəyiriksə, öz körpümüzü elmi-texniki tərəqqi çayının məcrası üstündə inşa etməliyik.

Məqalə şairi bərk tutur və axşam köhnə dostuna zəng vurur ki, nə yazmısan orda, xırdala görüm.

Və gecənin bir aləmində Bəxtiyarın növbəti telefon zəngi Şirməmmədi yuxudan oyadır: “Al gəldi” deyərək ona ithaf etdiyi təzə şeiri oxuyur:

Hələ toxum cücərməmiş
Talamıza alaq düşüb.
Başımız da daz olalı
Əlimizə daraq düşüb.

Xəyallarım – qanad-qanad,
Ətəyimdən dartdı həyat.
Dünənimə Dürat, Qırat,
Bu günümə ulaq düşüb.

Əlim üzüldü diləkdən,
Dilim yandı “gəl” deməkdən.
Öz haqqını gözləməkdən
Haqqın gözünə ağ düşüb.

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömür əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

Bəsirətli Bəxtiyar Vahabzadə bu şeiri yalnız mövzunu, ideyanı verdiyinə görə Şirməmməd müəllimə həsr etməmişdi.

Bəxtiyar millətcanlı bir yaradıcı idi, əngin təfəkkür sahibi idi və gözəlcə duyurdu ki, daim yaddaşın yatmış qatlarını diksindirən Şirməmmədlər olmasa, körpülərin çaylardan uzaq düşməsi təhlükəsi və ondan törəyən yüz cür fəsad yaxamızdan bilmərrə əl götürməyəcək.

Şirməmməd Hüseynovun irsi və məktəbi, yolu və dərsləri var olduqca isə körpü heç vaxt millət çayından aralı düşməyəcək!

...Şirməmməd müəllim bu yurd və xalq üçün təbərrük insan idi və əlbəttə ki, Allah da bunu bizdən daha əvvəl və daha yaxşı bilirdi!

Allah Şirməmməd müəllimin millət üçün gərəkliyini, tarix üçün faydalığını dəqiq bildiyindən, ona millət körpüsü olmaq vəzifəsini həvalə etdiyindən bu millət üçün onu yaşadırdı.

Sağlam yaşadırdı, gümrah yaşadır, düşüncəsini aydın, ruhunu təmiz yaşadırdı.

Elə yaşadırdı ki, doxsan beşinə çatanda onun əli silahlı idi, hər gün səngərdə idi.

Və böyründə də sədaqətli, vəfalı, fədakar şəfqət bacısı!

Mülki bir insandan bəhs edə-edə hərbi deyimləri qələmə gətirməyimi məcazlar saymayın. Bunlar şairanə bənzətmələr deyil, həqiqətin xalisidir.

Millət quruculuğu yolunda mübarizələr bitməyib, əksinə, hər gün daha artıq sürətlə davam edir və etməlidir.

Bu şərəfli yolda isə qələmin ən uzaqvuran toplardan-tüfənglərdən daha qüdrətli bir silah olduğunu tarixin bütün gedişi təsdiqləyir.

Böyük azərbaycanlı, lap çoxdan bütöv Azərbaycanı zəkasının nurunu səpdiyi auditoriyaya çevirmiş Ustad Şirməmməd Hüseynov istirahət günü və məzuniyyəti olmayan bir cədvəllə hər gün, ta 2019-cu il iyunun 24-ünəcən, nəfəsi gedib-gələn son saatlaracan iş başında idi.

Universitetə gedərək əsgərlərinə təlimini verirdi – gələcəyin jurnalisti olacaq tələbələrinə dərsini deyirdi, qayıdıb gəlib səngərinə – yazı masasının arxasına keçir, silahını – qələmini götürür və başlayırdı itirdiklərimizi qaytarmağa, qazandıqlarımızı daha yaxşı qoruya bilməkçün yollar göstərməyə, istiqlal salnaməmizi bir az da bütövləşdirməkçün yeni mübarizələrinə.

Şirməmməd Hüseynov nümunəsi bu millətin ruhuna keşik çəkmək, varlığını sağlam saxlamaq, yeni sınaqlardan mərdanəliklə keçirməkçün taleyin və tarixin Azərbaycana misilsiz ərməğanıdır.

Tale və tarix Şirməmməd müəllimin özünü də hər an bizlərçün hifz etməyi, qulluğunda durmağı isə onun sadiq ulduzuna – şəfqətli ömür-gün yoldaşı, ilk oxucusu Ülkər xanıma həvalə etmişdi.

Mehriban mənzilində bizə – Şirməmməd müəllimi ürəkdən sevənlərə görüş fürsətlərini, ustadın doyulmaz söhbətlərini dinləmək girəvəsini də tütyə dərman kimi qaşıq-qaşıq verən, onu bir sərhədçi sayıqlığı ilə mühafizə edən Ülkər xanımın insafsız dəmir intizamına illərcə dözməyə hazır idik və daha artıq – bunun müddətlərcə davam etməsini arzulayırdıq!

Dəyərlərimizi hamı Ülkər xanım kimi beləcə göz bəbəyitək qorusaydı, nə dərdimiz olardı ki!

...Və nə acı ki, bir gün hökmən gələcəyini bilsək də, heç cür Şirməmməd müəllimə yaraşdıra bilmədiyimiz əbədi ayrılıq anı da yetişdi...

...Bu ayrılığın üstündən 1 aydan da bir az çox keçən günlərin birində Ülkər xanımın qəmli etirafı ürəyimi sıyırdı: "Hərdən öz-özümə düşünürdüm ki, dünyada doyunca yaşadım, nəvələri də gördüm, nəticələri də. Amma Şirməmməd yox! O həyat eşqi ilə, yaşamaq arzusu ilə, təzə əsərlər yaratmaq həvəsi ilə dolu idi".

Ülkər xanım yol çəkən kədərli, yorğun gözləriylə baxır mənə, naçar-naçar köks ötürür: "Bilsən onsuz olmağa alışmaq necə çətindir!..".

Danışır və hiss edirəm ki, ayrılığın üstünə yeni günlər gəldikcə birgəliyin illərini, aylarının, həftələrini, günlərinin indi yaddaşını göynədən xatirlərini nə təhər xiffətlə yaşayır.

"Yeməyini yemişdi, keçdi əyləşdi həmişə oturduğu bu kresloda. Mürgüləyirdi. Elə yuxuda da sakitcə keçindi. İnanmağım gəlmirdi, elə bilirdim oyanacaq".

...Bu əbədi yuxu, heyhat hər insan üçün mütləq günlərin birində gəlir.

Şirməmməd müəllimi itirdik, amma onun sədaqətli ömür və məslək yoldaşı Ülkər xanım böyük alimin vəfatından sonra da onun qələm bəhrələri ilə görüşlərimizin davam etməsi üçün səylərini əsirgəmədi. Özü də mahiyyətcə Şirməmməd Hüseynov məktəbinin davamçılarından olan Ülkər xanım həyatını dolduran sevimli insanla əbədi ayrılıqdan sonra böyük alim və müəllim haqda həm özü yazdı, həm də vəfatından sonra onun haqqında dərc edilmiş müxtəlif məqalə və təəssüratları toplayaraq kitablara çevirdi. Həm də bu işi ayrı bir istiqamətdə də yenə irəlilətməkdədir: Şirməmməd Hüseynovun ayrı-ayrı televiziya və radio kanallarındakı çıxışlarını toplayaraq yazıya köçürür, onları çapa hazırlayır. Bu isə o deməkdir ki, Azərbaycan oxucusunu unudulmaz Şirməmməd Hüseynov imzalı yeni yazılarla hələ çoxlu yeni xoş görüşlər gözləyir.

Ölməz Mirzə Fətəlinin adını daşıyan və milli sərvətlərimizdən olan baş kitabxanamız elə Axundzadənin maarifçi məsləkinə uyğun olaraq apardığı ardıcıl çalışmaların daha bir dəyərli örnəyi kimi Azərbaycana professor Şirməmməd Hüseynovun düşüncə dünyasını bütövlüyü ilə görmək üçün münasib imkan yaradır.

Şirməmməd Hüseynovun əks-sədası mətbuatımızdan gələn qələm həyatı 1956-cı ildə onun "Qoç dəvət" qəzetinin 50 yaşı münasibətilə dərc etdirdiyi məqalədən başlayaraq düz 63 il davam etdi və 2019-cu ilin iyun günlərində, gözlərini əbədi qapamasından günlər öncə "Yeni Qafqasiya" qəzeti ilə bağlı təqdim etdiyi yazılaradək sürdü.

Millətimizə hədiyyə edilən bu "Biblioqrafiya" Şirməmməd Hüseynovun zəngin yaradıcılıq aləminə etibarlı bələdçi, qaynar vətənpərvərin, dərin alimin və fədakar müəllimin yaradıcı ömrünün xəritəsidir.

İnsanlarımız bu "xəritə"nin önündə daha çox dayandıqca, bu gərəkli kitabı vaxtaşırı vərəqlədikcə ondan saçan cazibə oxucunu daim millət tarixinin şanlı səhifələrinə, nurlu şəxsiyyətlərinə doğru çəkəcək, onları daha yaxşı tanımağa və bilməyə, yaratdıqları irsi qorumağa və yaşatmağa yönəldəcək.

Şirməmməd müəllimin zəhmətli ömrünün müqabilində nəticə olaraq dünyadan və sabahın azərbaycanlılarından umduğu elə bu idi.

Şirməmməd Hüseynovun
həyat və yaradıcılığının əsas tarixləri

Şirməmməd Ağaməmməd oğlu Hüseynov 1924-cü il dekabrın 17-də Şəkidə anadan olmuşdur.

1940 – Şəkidə M.F.Axundov adına 2 nömrəli orta məktəbi bitirmişdir;
– Azərbaycanın müxtəlif rayonlarından olan 4 məktəbli ilə Şirməmməd Hüseynov da, SSRİ üzrə əlaçı şagirdlərin sırasında Soçidə məşhur istirahət düşərgəsində dincəlməyə göndərilmişdir.

1940-1942 – Şəki 2 illik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsini bitirmişdir.

1942-1944 – Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük, Oxud kəndlərində və şəhər 10 №-li orta məktəblərində fizika-riyaziyyat müəllimi işləmişdir.

1944-1945 –"Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi çalışmışdır.

1945-1950 – Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almış, oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1947-1950 – Azərbaycan Dövlət Universitetinin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini işləmişdir.

1948-1950 – "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləmişdir.

1948 – Azərbaycan Dövlət Universitetinin Nizami təqaüdünə layiq görülmüşdür.

1950-1954 – M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil almışdır.

1954 – M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin Elmi Şurasında MDU mətbuat tarixi kafedrasının müdiri, professor İ.A.Portyankinin rəhbərliyi ilə ***"Azərbaycan mətbuatı 1917-1918-ci illərdə"*** mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1954-1961 – ADU-nun (indiki BDU) Jurnalistika kafedrasının baş müəllimi işləmişdir.

1961-1971 – ADU-nun Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti olmuşdur.

1966 – ***"Qızıl qələm"*** mükafatına layiq görülmüşdür.

1970-1976 – ADU-nun Jurnalistika fakültəsinin dekanı olmuşdur.

1971-1982 – SSRİ Ali Təhsil nazirliyinin jurnalistika üzrə elmi-metodiki şurasının üzvü seçilmişdir.

1972 – Zaqatala rayonunda keçirilən jurnalistlərin zona müşavirəsində iştirak etmişdir;
– İkinci dəfə ***"Qızıl qələm"*** mükafatına layiq görülmüşdür.

1976-1979 – SSRİ Jurnalistlər İttifaqının sovet mətbuatı, televiziyası və radiosu tarixinə, nəzəriyyə və təcrübəsinə dair əsərlərin Ümumittifaq müsabiqəsi komissiyasının üzvü olmuşdur.

1976-1980 – ADU-nun mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1981-1983 – ***"Azərbaycan bolşevik mətbuatı"*** kitabının I və II hissəsi "Azərbaycan Dövlət Universiteti" nəşriyyatında çap olunmuşdur.

1987 – Azərbaycan bolşevik mətbuatının təşəkkül tarıxindən bəhs olunan ***"Azərbaycan dilində ilk bolşevik nəşrləri"*** adlı kitabı "Azərbaycan Dövlət Universiteti" nəşriyyatında çap olunmuşdur.

1988 – ADU-nun jurnalistika fakültəsinin Mətbuat tarixi və ideoloji iş kafedrasının professoru olmuşdur;
– Azərbaycan mətbuat tarixinin az öyrənilmiş 1903-1907-ci illər dövrünün tədqiqinə həsr edilmiş ***"Həqiqət və ədalət carçısı"*** kitabı "Azərnəşr"də çap edilmişdir;
– Azərbaycan sovet jurnalistikasının inkişafında xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə ***"Əməkdar jurnalist"*** fəxri adına layiq görülmüşdür.

1991 – Azərbaycan Jurnalistlər Birliyinin ***"Zərdabi mükafatı"na*** layiq görülmüşdür.

1992 – ***"Y.Məmmədəliyev mükafatı"na*** layiq görülmüşdür;
– Toplayıb, tərtib etdiyi M.Ə. Rəsulzadənin 1903-1909-cu illərdə "Şərqi-Rus", "Hümmət", "Dəvət", "İrşad" və s. qəzetlərində, "Füyuzat", "Volna" jurnallarında çıxan 280-a yaxın yazısının daxil olduğu ***"Əsərləri: (1903-1909)"*** adlı kitabın I cildi "Azərnəşr"də çap edilmişdir.

1996 – 1988-1993-cü illərdə yazılmış və respublika mətbuatında dərc olunmuş yazılarının bir qisminin daxil edildiyi ***"Müstəqilliyin çətin yolu... Biz hara gedirik?"*** adlı kitabı "Azərnəşr"də çap edilmişdir.

1997 – Nəşrə hazırladığı Məmməd Əmin Rəsulzadənin ***"Mühafizəkar və ya sosialist-mühafizəkar partiyalarının tənqidi"*** ("Tənqidi-firqeyi Etidaliyyun və ya ictimaiyyun-etidaliyyun")" kitabı "Diplomat" nəşriyyatında çap edilmişdir.

1998 – ***"M.Ə.Rəsulzadə mükafatı"na*** layiq görülmüşdür.

2001 – Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu M.Ə.Rəsulzadənin 1909-1914-cü illərdə Tehran, İstanbul və Bakıda qələmə aldığı, dövri mətbuatda və ayrıca kitabça halında dərc olunmuş 140-a yaxın əsərinin daxil olduğu ***"Əsərləri: 1909-1914"*** adlı kitabın II cildi "Şirvan-nəşr"də çap olunmuşdur.

2004 – 1988-2000-ci illərdə yazdığı və respublikanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün çox mühüm problemlərinə həsr olunmuş məqalə, müsahibə, çıxış və s. daxil edildiyi ***"Milli haqq və ədalət axtarışında"*** adlı kitabı "Adiloğlu" nəşriyyatında çap edilmişdir;
– Bakı Dövlət Universiteti tərəfindən ***"Şirməmməd Hüseynov. Biblioqrafiya"*** adlı kitab nəşr olunmuşdur (tərtib edəni Nüşabə Abbaszadə, redaktor Nəsiman Yaqublu).

2005 – Azərbaycan jurnalistikasının inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

2007 – 2005-2006-cı illərdə dərc olunmuş məqalələrinin, müxtəlif illərdə onun haqqında yazılmış rəylər və digər materialların, həmçinin öz qısa xatirələrinin daxil edildiyi "***Mətbu irsimizdən səhifələr"*** adlı kitabı "Çənlibel" NPM nəşriyyatında çap olunmuşdur.

2009 – 1988-1993-cü illərdə, həmçinin 2007-2009-cu illərdə yazılmış və respublika mətbuatında dərc olunmuş yazılarının bir qisminin daxil edildiyi ***"Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr"*** adlı kitabı "Elm" nəşriyyatında çap edilmişdir;
– Bakı Dövlət Universitetində 85 illik yubileyi təntənə ilə qeyd edilmişdir;
– Toplayıb, ərəb əlifbasından latın qrafikasına çevirdiyi, ön sözünün müəllifi olduğu Üzeyir Hacıbəylinin ***"Nəşrlərdə kənara qoyulmuş, mətbu əsərləri (1904-1912)"*** adlı kitabının I hissəsi "Elm" nəşriyyatında çap edilmişdir;
– Bakı Dövlət Universiteti tərəfindən ***"Şirməmməd Hüseynov. Biblioqrafiya"*** adlı kitab nəşr olunmuşdur (tərtib edən Aygün Əzimova; redaktor Şamil Vəliyev).

2010 – Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə Mətbuat Şurasının ***"I Dərəcəli Ali Media mükafatına"*** layiq görülmüşdür;

– Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu Üzeyir Hacıbəylinin ***"Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-1912)"*** adlı kitabının II hissəsi "Elm" nəşriyyatında çap edilmişdir.

2012 – Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu M. Ə. Rəsulzadənin 1915-1916-ci illərdə qələmə aldığı, dövri mətbuatda dərc olunmuş 200-ə yaxın əsərinin daxil olunduğu ***"Əsərləri: 1915-1916"*** adlı kitabın III cildi "Elm" nəşriyyatında çap edilmişdir.
– ***"Məhəmməd Əmin Rəsulzadə. Əsərləri. 1915–1916-cı illər"*** adlı kitabına görə Mətbuat Şurasının diplomu ilə təltif edilmişdir.

2013 – "Borçalı" İctimai Cəmiyyətinin təsis etdiyi ***"Zahid Xəlilov adına mükafat"a*** layiq görülmüşdür;
– Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu M.Ə.Rəsulzadənin 1917-ci ilin yanvar - 1918-ci ilin aprelinə qədərki mürəkkəb və gərgin, işıqlı və faciəli dövründə qələmə aldığı yazıları, qurultay, yığıncaq və mitinqlərdəki nitq və çıxışlarının, məruzələrinin mətbuatda dərc olunmuş məqalələrinin daxil olduğu ***"Əsərləri: (1917-aprel 1918)"*** adlı kitabının IV cildi "Qanun" nəşriyyatında çap edilmişdir;
– Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu M.Ə. Rəsulzadənin Bakı və Azərbaycan tarixi ilə əlaqədar Cümhuriyyətin varlığının ilk ilində yazdığı əsərlərinin daxil olduğu "***Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919)"*** adlı kitabı "Qanun" nəşriyyatında çap edilmişdir.

2014 – Azərbaycan Respublikasında jurnalist kadrların hazırlanmasında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ***"Şərəf"*** ordeni ilə təltif edilmişdir;
– Professor Şirməmməd Hüseynovu 90 illik yubileyi münasibətilə Azərbaycan Mətbuat Şurasının "O film" studiyası ilə birgə layihəsi əsasında ***"Ustad"*** adlı film çəkilmişdir.
– Görkəmli pedaqoq, mətbuatımızın əvəzedilməz tədqiqatçısı,

publisist, professor Şirməmməd Hüseynovun 90 illik yubileyinə həsr olunmuş, onun həyatı, yaradıcılıq yolu, ictimai fəaliyyəti barədə Azərbaycanın elm və ictimai xadimlərinin məqalələrinin toplandığı ***"İstiqlalın işığında"*** adlı kitab "Zərdabi LTD" MMC-də çap olunmuşdur.

– Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu M.Ə. Rəsulzadənin 1918-ci il fevral-1920-ci il aprel aylarında mətbuatda və rəsmi sənədlərdə dərc edilmiş 100-dən artıq əsərinin daxil olduğu ***"Əsərləri: (1918-aprel, 1920)"*** adlı kitabının V cildi "Təhsil" nəşriyyatında çap edilmişdir;

– Bakı Dövlət Universiteti tərəfindən ***"Şirməmməd Hüseynov. Biblioqrafiya"*** adlı kitab nəşr olunmuşdur (tərtib edənlər: Aygün Əzimova, Samir Mirzəyev; red. Şamil Vəliyev)

2015-2017 – Toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirdiyi, ön sözünün müəllifi olduğu ***""Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər: noyabr 1918 - aprel 1920"*** adlı kitabının I, II və III cildləri "Qanun" nəşriyyatında çap olunmuşdur.

2017 – Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Novruz mühazirələri" layihəsi çərçivəsində İçərişəhərdəki "Muğam" klubunda professorun ***"Üzeyir Hacıbəyli fenomeni"*** mövzusunda mühazirəsi dinlənilmişdir.

2018 – Akademik Rafael Hüseynovun professor Şirməmməd Hüseynovun ömür və yaradıcılıq yoluna həsr etdiyi ***"Millət yaddaşının keşikçisi"*** adlı kitabı "Elm və təhsil" nəşriyyatında çap edilmişdir.

2019 – 24 iyunda görkəmli pedaqoq, mətnşünas, milli mətbuat tarixinin misilsiz araşdırıcısı Şirməmməd Hüseynov Bakı şəhərində vəfat etmişdir.

– 25 iyunda Bakı Dövlət Universitetində alimlə vida mərasimi keçirilmiş, İkinci Fəxri Xiyabanda dəfn edilmişdir;

– Görkəmli mətbuat xadiminin vəfatından sonra həyat yoldaşı

Ülkər Hüseynova tərəfindən 40 gün ərzində mətbuatda çap olunan yazıların toplanıldığı ***"Sizdən bir də olmayacaq. Əlvida"*** adlı kitab tərtib edilərək "AFPoliqrAF" nəşriyyatında çap olunmuşdur;

– Şair, publisist Ramiz Orsərin ***"Haqqın səsi: Professor Şirməmməd Hüseynovun portret cizgiləri"*** adlı kitabı "Elm və təhsil" nəşriyyatında çap edilmişdir;

– Görkəmli mətbuat xadiminin anadan olmasının 95-ci ildönümü münasibətilə Bakı Dövlət Universitetinin Mətbuat tarixi kafedrasının qarşısında barelyefinin açılış mərasimi keçirilmişdir;

– Parlament Jurnalistləri Birliyinin İdarə Heyəti tərəfindən ***"Şirməmməd Hüseynov mükafatı"*** təsis edilmişdir;

– 17 dekabrda Milli Kitabxanada Şirməmməd Hüseynovun anadan olmasının 95 illiyi ilə əlaqədar ***"Şirməmməd Hüseynov – 95"*** adlı kitab sərgisi keçirilmişdir.

2020 – Diplomat, araşdırmaçı alim, diaspor fəalı Ramiz Abutalıbova "Şirməmməd Hüseynov mükafatı" verilmişdir.

2021 – Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevaya "Şirməmməd Hüseynov mükafatı" verilmişdir;

– Professorun anadan olmasının 97-ci ildönümü münasibətilə Azərbaycan Mətbuat Şurasında və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində anım tədbirləri keçirilmişdir;

– Həyat yoldaşı Ülkər Hüseynova tərəfindən alimin 100 illiyinə həsr edilmiş, onun həyat və fəaliyyəini əks etdirən ***"Cümhuriyyət adamı"*** adlı kitabı "AFPoliqrAF" nəşriyyatında çap olunmuşdur.

2022 – Azərbaycanın Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə "Şirməmməd Hüseynov mükafatı" təqdim edilmişdir.

2023 – Məmməd Əmin Rəsulzadənin nəvəsi, Azərbaycan Rəssamlar İttifaqının üzvü Rais Rəsulzadəyə "Şirməmməd Hüseynov mükafatı" təqdim edilmişdir.

2024 – Ülkər Hüseynovanın alimin 100 illik yubileyinə həsr olunmuş ***"Vətənə xidmətin alimlik etalonu"*** adlı kitabı "Optimist" nəşriyyatında çap olunmuşdur;

– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən görkəmli alim, professor Şirməmməd Hüseynovun 100 illik yubileyi münasibətilə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından ***"Şirməmməd Hüseynov: (Şirməmməd Ağamməmməd oğlu Hüseynov). Biblioqrafiya"*** kitabı nəşr edilmişdir;

- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan ***"Şirməmməd Hüseynov: (Şirməmməd Ağaməmməd oğlu Hüseynov). Biblioqrafiya"*** kitabının təqdimat mərasimi olmuşdur;

- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən görkəmli alimin 100 illik yubileyinə həsr olunmuş ***"Professor Şirməmməd Hüseynov - 100"*** adlı elektron məlumat bazası hazırlanaraq oxuculara təqdim olunmuşdur;

- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən ***"Görkəmli alim - Şirməmməd Hüseynov"*** adlı ənənəvi və virtual sərgi tərtib olunaraq istifadəçilərə təqdim olunmuşdur.

Основные даты жизни и творчества Ширмаммеда Гусейнова

Ширмамед Агамамед оглы Гусейнов родился 17 декабря 1924 года в Шеки.

1940 – Окончил среднюю школу № 2 имени М.Ф.Ахундова в Шеки;
– Ширмамед Гусейнов и 4 школьника из разных регионов Азербайджана, входящие в число отличников СССР, были направлены на отдых в знаменитый оздоровительный лагерь в Сочи.

1940-1942 – Окончил физико-математический факультет Шекинского Двухгодичного Учительского Института.

1942-1944 – Преподавал физику и математику в Закатальском селе Вархиан, шекинских селах Ашагы Гёйнук и Охуд и городской средней школе № 10.

1944-1945 – Литературный сотрудник в газете «Нухинский рабочий».

1945-1950 – С отличием окончил отделение журналистики филологического факультета Азербайджанского Государственного Университета.

1947-1950 – Работал редактором газеты «За ленинское воспитание».

1948-1950 – Работал руководителем отдела в газете «Азербайджанский учитель».

1948 – Был удостоен стипендии Низами Азербайджанского государственного университета.

1950-1954 – Учился в аспирантуре МГУ имени М.В. Ломоносова.

1954 – В Научном Совете факультета журналистики МГУ им.М.В.Ломоносова успешно защитил диссертацию на тему ***«Азербайджанская пресса в 1917-1918 годах».*** Научный руководитель - заведующий кафедрой истории печати МГУ имени М.В. Ломоносова профессор И.А. Портянкин.

1954-1961 – Старший преподаватель кафедры журналистики филологического факультета.

1961-1971 – Доцент кафедры теории и практики журналистики АГУ

1966 – Был удостоен премии ***«Золотое перо»***.

1970-1976 – Декан факультета журналистики.

1971-1982 – Избран членом Научно-методического совета по журналистике Министерства образования СССР.

1972 – Принял участие в зональной конференции журналистов, состоявшейся в гатальском районе;
– Был повторно удостоен премии ***«Золотое перо»***.

1976-1979 – Избран членом Всесоюзной конкурсной комиссии Союза журналистов СССР, рассматривающей работы по истории, теории и практике советской печати, телевидения и радио.

1976-1980 – Заведующий кафедрой истории печати и методов идеологической работы.

1981-1983 – В издательстве «Азербайджанский государственный университет» вышла в свет первая часть книги ***«Азербайджанская большевистская пресса»***.

1987 – В издательстве «Азербайджанский государственный университет» вышла книга ***«Первые большевистские издания на азербайджанском языке»***.

1988 – Профессор кафедры Истории прессы и идеологической работы факультета журналистики АГУ;
– В издательстве «Азернешр» была опубликована книга «***Вестник правды и справедливости»;***
– Указом Президиума Верховного Совета Азербайджанской ССР Гусейнову Ширмамеду Агамамед оглы за заслуги в развитии азербайджанской советской журналистики присвоено почетное звание ***«Заслуженный жур-налист»***.

1991 – Был удостоен ***«Премии Зардаби»***.

1992 – Был удостоен ***«Премии Ю.Мамедалиева»;***
– В «Азернешр» была издан составленный Ширмамедом Гусейновым первый том ***«Трудов (1903-1909)»*** Мамеда Эмина Расулзаде. В книгу вошло около 280 статей М.Э.Расулзаде, опубликованных в 1903-1909 годах в газетах «Шарги-Рус», «Гуммет», «Девет», «Иршад» и журналах «Фиюзат», «Волна» и др.

1996 – В «Азербайджанском Государственном Издательстве» была опубликована книга ***«Трудный путь независимости… Куда мы идем?».*** Книга была написана в 1988-1993 годах. В нее вошло некоторое количество статей, опубликованных в республиканской печати.

1997 – Подготовил к изданию и написал предисловие к книге Мамеда Эмина Расулзаде ***«Критика консервативных или консервативно-социалистических партий»***. Книга была опубликована в издательстве «Дипломат».

1998 – Был удостоен «Премии М.Э.Расулзаде».

2001 – В издательстве «Ширваннешр» был опубликован II том ***«Трудов»*** Мамеда Эмина Расулзаде Автором предисловия, составителем и переводчиком с арабского алфавита на латиницу является Ширмамед Гусейнов. В книгу вошли более 140 произведений М.Э.Расулзаде, опубликованных в Баку, Тегеране и Стамбуле в 1909-1914 годах в периодической печати и и отдельной брошюрой.

2004 – В издательстве «Адильоглу» вышла книга «***В поисках национальной истины и справедливости».*** В книгу вошли написанные и опубликованные в республиканской печати статьи, интервью, выступления 1988-2000 гг., посвященные важным общественно-историческим проблемам эпохи.
– Бакинским государственным университетом издана книга ***"Ширмамед Гусейнов. Библиография"*** (составитель Нушаба Аббасзаде, редактор Насиман Ягублу).

2005 – За выдающиеся заслуги в развитии азербайджанской журналистики удостоен Персональной пенсии Президента Азербайджанской Республиики.

2007 – В издательстве НПМ «Ченлибель» вышла книга Ш. Гусейнова ***«Страницы нашего литературного наследия».*** В книгу вошли статьи, опубликованные в 2005-2006 гг., материалы об авторе, и собственные краткие воспоминания.

2009 – В издательстве «Элм» вышла книга Ш. Гусейнова ***«Трудный путь независимости... Реалии, размышления».*** В книгу частично вошли произведения, написанные и опубликованные в 1988-1993 и 2007-2009 годах;
– В Бакинском государственном университете состоялось торжественное собрание по случаю 85-летия Ш.Гусейнова;
– В издательстве «Элм» вышла в свет I часть книги ***«Узеир Гаджибейли: «Неизданные сокращенные и «отредактированные» публиистические произведения (1904-1912 гг.)»***. Автор предисловия, перевода с арабского алфавита на

латиницу и составитель словаря – Ширмамед Гусейнов.
– Бакинским государственным университетом издана книга ***«Ширмамед Гусейнов. Библиография»*** (составитель Айгюн Азимова; редактор Шамиль Велиев).

2010 – Награжден ***«Высшей медиапремией первой степени»***;
– В издательстве «Элм» вышла в свет II часть книги Узеир Гаджибейли ***«Неизданные сокращенные и «отредактированные» публицистические произведения (1904-1912 гг.)»***. Автор предисловия, перевода с арабского алфавита на латиницу и составитель словаря – Ширмамед Гусейнов.

2012 – В издательстве «Элм» вышел в свет 3-й том ***«Сочинений»*** (1915-1916) Мамеда Эмина Расулзаде. Автор предисловия, перевода с арабского алфавита на латиницу и составитель словаря – Ширмамед Гусейнов. В книгу вошли произведения написанные и опубликованные Мамедом Эмином Расулзаде в 1915-1916 гг.
– Профессор Ширмамед Гусейнов был награжден дипломом Совета по делам Печати за книгу ***«Сочинения» (1915–1916) Мамеда Эмина Расулзаде»***

2013 – Был удостоен премии ***«Захида Халилова»***, учрежденной Обществом «Борчалы».
– В издательстве «Ганун» вышел в свет 4-й том ***«Сочинений»*** (1917-апрель1918) Мамеда Эмина Расулзаде. Автор предисловия, перевода с арабского алфавита на латиницу и составитель словаря - Ширмамед Гусейнов. В книгу вошли произведения, написанные М.Э.Расулзаде в трагичное, сложное и тревожное для Отечества время – с января 1917 по апрель 1918 год, тексты его выступлений на митингах, речи и доклады.
– В издательстве «Ганун» была опубликована книга Мамеда Эмина Расулзаде ***«Труды по истории Баку и Азербайджана (1918-1919)»***. Автор предисловия, перевода с арабского алфавита на латиницу и составитель словаря – Ширмамед

Гусейнов. В книге впервые была представлена история Азербайджана и Баку в годы существования АДР.

2014 –Распоряжением Президента Азербайджанской Республики Ширмамед Гусейнов был награжден Орденом «***Шараф» («Почет»)***;
–17 декабря в Международном пресс-центре состоялся показ фильма ***«Мастер»***, посвященного 90-летию Ширмамеда Гусейнова и его жизненному пути;
– Книга ***«В свете независимости»*** (к 90-летию со дня рождения профессора Ширмамеда Гусейнова) была издана «Зардаби ЛТД». Книга посвящена жизни и творческому пути выдающегося педагога, публициста, исследователя, профессора Ширмамеда Гусейнова. В книгу вошли статьи научных и общественных дея-телей Азербайджана;
– В издательстве ***«Тахсил»*** был издан V том (1918-апрель 1920) «Сочинений» Мамеда Эмина Расулзаде. Автор предисловия, перевода с арабского алфавита на латиницу и составитель словаря – Ширмамед Гусейнов. В книгу вошли более 100 произведений М.Э. Расулзаде, написанных в период с февраля 1918 по апрель 1920 и опубликованных в печати и официальных докуметах;
– Бакинским государственным университетом издана книга ***"Ширмамед Гусейнов. Библиография"*** (составители: Айгюн Азимова, Самир Мирзоев; изд. Шамиль Велиев)

2015-2017 В издательстве «Ганун» были опубликованы 1, II и III тома книги ***«Парламентские отчеты и комментарии в газете «Азербайджан» (ноябрь 1918-апрель 1920 года)»***. Автор предисловия, перевода с арабского алфавита на латиницу – Ширмамед Гусейнов.

2017 – В клубе «Мугам» в Ичеришехер была прослушана лекция профессора Ш.Гусейнова на тему ***«Феномен Узеира Гаджибейли».*** Мероприятие было организовано Министерством Образования в рамках проекта «Новрузовские лекции»;

2018 – В издательстве «Elm və Təhsil» была опубликована книга Рафаэля Гусейнова ***«Хранитель национальной памяти»***, посвященная жизни и творческому пути Ширмамеда Гусейнова.

2019 – 24 июня в Баку скончался выдающийся педагог, текстовед, непревзойденный исследователь национальной печати Ширмамед Гусейнов;
– 25 июня в Бакинском государственном университете состоялось прощание с ученым. Похоронен на Второй Аллее почетного захоронения;
– В издательстве «AFPoliqrAF» была опубликована книга ***«Таких как вы больше не будет. Прощайте».*** В сборник, составленный супругой выдающегося журналиста, вошли заметки и воспоминания о нем, изданные в течение сорока дней после его кончины;
– В издательстве «Наука и образование» была опубликована книга поэта и публициста Рамиза Орсера ***«Голос истины: штрихи к портрету профессора Ширмамеда Гусейнова»***;
– К 95-й годовщине выдающегося деятеля печати перед кафедрой Истории печати Бакинского государственного университета был открыт барельеф ученого;
– Совет директоров Союза журналистов парламента принял решение об учреждении ***«Премии Ширмамеда Гусейнова»***;
– 17 декабря в Национальной Библиотеке состоялась книжная выставка под названием «Ширмамед Гусейнов-95», посвященная 95-летию со дня рождения Ширмамеда Гусейнова.

2020 – Дипломат, учёный-исследователь, активист диаспоры Рамиз Абуталыбов был удостоен премии им. Ширмамеда Гусейнова.

2021 – «Премия Ширмамеда Гусейнова» была удостоена руководителю Бакинского медиа-центра Арзу Алиевой;
– Факультет журналистики Бакинского государственного

университета организовал мероприятие, посвященное 97-летию со дня рождения профессора;

– Супруга ученого Улькяр Гусейнова опубликовала книгу ***«Человек Республики»***, приуроченную к 100-летию ученого и отражающую его жизнь и деятельность.

2022 – Чрезвычайному и Полномочному Послу Азербайджана в Боснии и Герцеговине Вилаяту Гулиеву вручена «Премия Ширмамеда Гусейнова».

2023 – «Премия Ширмамеда Гусейнова» вручена члену Союза художников Азербайджана, внуку Мамеда Эмина Расулзаде –Раису Расулзаде.

2024 – В издательстве «Оптимист» была опубликована книга Улькяр Гусейновой «Эталон науки служения Родине», посвященная 100-летию ученого;

– Азербайджанской Национальной библиотекой имени М.Ф.Ахундова в серии «Выдающиеся деятели Азербайджана“ была издана книга ***«Ширмамед Гусейнов: (Ширмамед Агамемед оглы Гусейнов). Библиография»***.

– Состоялась церемония презентации книги ***«Ширмамед Гусейнов: (Ширмамед Агамамед оглу Гусейнов) Библиография»,*** изданной Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова в серии «Выдающиеся деятели Азербайджана»;

– Вниманию читателей была представлена электронно-информационная база ***«Профессор Ширмамед Гусейнов – 100»***, подготовленная Азербайджанской Национальной Библиотекой Азербайджана им. М.Ф.Ахундова к 100-летию со дня рождения выдающегося ученого;

- В Азербайджанской Национальной Библиотеке им. М.Ф.Ахундова вниманию пользователей были представлены традиционная и виртуальная выставки на тему ***«Выдающийся ученый – Ширмамед Гусейнов».***

Şirməmməd Hüseynovun deyimləri

Millət tarixini bilməsə, millət kimi formalaşa bilməz.



Siyasi mədəniyyət XX əsrin ən böyük nailiyyətidir.



Tükənməyən bir şey varsa, o da insan beynidir.



Günəş enerjisi və insan beyni bəşəriyyətin taleyini həll edəcək.



İstiqlal bütün xalqın əsəridir.



Xalq hələlik siyasətçilərlə siyasətbazları yaxşı seçə bilmir. Odur ki, kim siyasətbazlıqla məşğul olub xal toplamaq istəyirsə, xalqa xəyanət edir. Gəlin, bunu unutmayaq.



Tarix də göstərir ki, hansı xalq, hansı ölkə imperiya ambisiyası ilə, şovinizm ideologiyası ilə yaşayırsa, düşmənsiz keçinə bilmir. Ona xalqı sakitləşdirmək, zorla işlətmək, qazandığını əlindən almaq üçün düşmən obrazı lazımdır. Çünki düşməni olan xalq hər cür əzab və əziyyətə dözür, təki düşmənə qalib gəlsin.



Kim yaşadığı cəmiyyəti yaxşı tanımırsa, ondan jurnalist olmaz.

Sement olmasa binalar necə tikilə bilər, daş daşın üstündə necə dayana bilər? Sement milli ideologiyadır. Bu ideologiyanı yaratmaq üçün gərək jurnalistlərimiz də çalışsınlar.

Adamın təbiətində gərək xeyirxahlıq ola. Jurnalistin ki, təbiətində sancmaq oldu, o redaksiya batdı. Hara getdi dava çıxarıb gələcək. Nə yazsa, altından su çıxacaq. Çünki təbiətində sancmaq var. Jurnalist gərək xeyirxah ola, yaxşını görməyi bacara. Yeniliyi görməyi bacara. Bu dünyada yeniliyi görməkdən çətin şey yoxdur.

Üzeyir bəy sənəti ilahi sənətdir, allah vergisidir, tarixin və taleyin bizə böyük töhfəsidir. Müqəddəslik onun həm sənətində, həm də heç vaxt unudulmayan çöhrəsindədir.

Bəşəriyyətin öz obyektiv inkişaf qanunları var. Tarix bu qanunlarla yaranır. Zor gücünə ölkəni təbii inkişaf macərasından çıxarmaq asandır. Lakin onu bu məcraya qaytarmaq dünya sivilizasiya ölkələri sırasına daxil etmək qədər çətin imiş.

Hər şeydən əvvəl, biz məhz müqəddəslərin və onlarla həmfikir olanların əzm, qətiyyət, rəşadət və imana sədaqətləri sayəsində mövcuduq. Məhz vətəni ilahicəsinə sevən böyük ağıl və istedad sahibləri müqəddəs elan oluna bilər.

Yer üzündəki bütün təbii fırtınalar Günəş enerjisinin qeyri-bərabər, insafsızcasına bölünməsindən, inqilablar isə ictimai-siyasi, milli ədalətsizlik zəminində meydana gəlir və buradan da ictimai inqilablar, sarsıntılar, böhranlar yaranır. Bu həqiqəti dərk etmək lazımdır.

Siyasi mədəniyyət olan ölkələrdə şəxsiyyət ön planda, avtoritar rejim olan ölkədə isə dövlət və partiya ön plana keçir.

Farmasiyaları atlanmaq siyasi avantüradır. Təbii və normal inkişafı heç bir şey əvəz edə bilməz. Ümumiyyətlə, zorakılıq insanın görmədiyi, nəzərə almadığı fəlakətlərə səbəb olur. Təbiət və cəmiyyət zorakılığı heç kəsə bağışlamır.

Milli təkəbbür, milli lovğalıq kimi millətə ziyan vuran ikinci bir amil yoxdur. Təvazökarlıq, sadəlik, təmkinlilik hər bir millətə də xas olmalıdır.

Təbiətdə sel yuxarıdan aşağıya axırsa, cəmiyyətdə əksinədir. Aşağıdan el gücü, sel gücü olur, inkişafın qabağını kəsmiş yuxarıların üfunətini silib-süpürüb aparır. Yuxarıdan inqilab heç vaxt tərəqqi və inkişafın yolunu geniş açmağı qarşısına məqsəd qoymamış və qoya bilməz. O, özünün yaratdığı ictimai xəstəlikləri özü sağalda bilməz. Burada xalq təbabəti, xalqın kəsərli müalicə üsulu lazımdır.

Ziyalılığın əsas meyarı savad və diplomdan artıq vicdandır, ictimai vicdan, milli vicdandır. Ağa qara, qaraya ağ demək və ziyalılıq bir yerə sığışan deyil.

Dirilər: bugünkü nəsil bütün əcdadların ruhu qarşısında cavabdehdir, onların qoyub getdikləri torpaq və vətən qarşısında öz tarixi borcunu yerinə yetirmək üçün hökmlüdürlər.

Vətən istiqlalsız, dövlət hürriyyətsiz olmaz.

Son 70 ildə əsrin ilk iki onilliyində yetişmiş ictimai-siyasi xadimlərin, şəxsiyyətlərin – M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, F.X.Xoylu, N.Yusifbəyov, Ü.Hacıbəyli və başqalarının Azərbaycan "tarixi"ndən bu və ya başqa şəkildə çıxarılmaları üçün göstərilən səylər (!) həqiqəti gizlətməyin bir forması idi. Məlumdur ki, "tarixçilərimizin" bu cəhdlərinə, qadağalarına baxmayaraq, onların yazılarını dövrün mətbuat orqanları qoruyub saxlamışdır.

Hər bir insan və xalq üçün özünü tanıtmamaqdan böyük təhlükə yoxdur. Özünü tanımayan millət tarixi inkişaf yolunu və səmtini düzgün müəyyənləşdirə bilməz.

Xalqın qədər və taleyində şəxsiyyətlərin rolu əvəzsizdir. Millət, xalq şəxsiyyətləri ilə tanınar.

Xalqın başını uca edən, onu yaşadan, tərəqqi və təkamülünü istiqamətləndirən, mühafizə və müdafiəsini təşkil edən şəxsiyyətlər xalqın ən böyük dövlətidir.

Tərəqqi üçün azadlıq və istiqlal gərəkdir.

Müəllim məsələsi hər millətin ölüm-dirim məsələsidir.

Doğrudan da fantaziya adamı həm də yolundan çıxaran peşədir. Fantastlar bildiklərini saysınlar, görək fələk və tarix nə sayacaq.



Məddahlıq köhnə "sənətdir" davamçıları hər zaman var.



Kitabdan ad silmək olar, tarixdən yox!



Aldanmayan, aldatmayan təkcə tarixdir.



Məzlum millətin mətbuatı da məzlum olur.



Düşmənini tanı, milli intibahını yüksəlt.



Müstəqil dövlətə azad jurnalistika gərəkdir.



Diktaturadan demokratiya yarana bilməz.



İmperiya dağılır, ruhu qalır.



Söz azadlığı insanın təbii azadlığıdır.



Söz azadlığı həm təbii, həm də ictimai hüquqdur.



Keçmiş sistemi zorla yıxmaq olar, amma zorla idarə etmək olmaz.

Xüsusi mülkiyyət olmayan yerdə demokratiya, demokratiya olmayan yerdə isə hüquqi dövlət olmaz.

Tarixin dərslərini unutmaq faciəli ola bilər.

Burası da isbat olunmuş bir həqiqətdir ki, ayıqlığı aşağı təbəqədən başlanmış olan məmləkətlər daha məsud, daha azad və daha müasir bir həyata nail olurlar.

Müasirləşmək üçün ilk əvvəl gərək özünə qayıdasan. Öz milli varlığını isbat edəsən ki, o kökdə müasirləşəsən. Yoxsa, Avropanı, Amerikanı təqlid etmək müasirləşmək deyil.

İstiqbal bütün xalqın əsəridir.

Fəda ol, qədir gör.

Eşidən qulaq, nəcabət, dərin düşüncə gərək.

Külək yaradanlar mütləq tufana düşürlər.

İstiqlaliyyət ruhu xalqın namus və şərəfidir.



Vətəndaş cəmiyyəti olmayan yerdə ən yaxşı söz də göyə atılan güllə kimidir.



Məddahlardan ibarət parlament millət dərdi çəkə bilməz.



"Milli faciədən "bayram" düzəldənlərin faciəsi də qaçılmazdır", "əsrlər keçir, təcavüzkar erməni xisləti dəyişmir".



Hal-hazırın kökü keçmişdədir... Keçmiş gələcəyin iynəsidir.



İnsanı yaşat ki, millət yaşasın, dövlət yaşasın!



Ədalət hissi, həqiqət hissi insanın qanına ictimai ədalətsizliklərlə daxil olur. Kim ictimai ədalətsizlik uğrunda mübarizə aparmırsa, deməli yel dəyirmanları ilə mübarizə aparır.



Hər bir xalq öz taleyinə layiqdir, vicdanımız necəsə, vətənimiz də elədir!



Varislik millətin yetkinlik əlamətidir.



Tarix elmlə birləşəndə tarix olur.



Şəxsiyyətləri olmayan tarix deyil.



Dünyanın çoxdan qəbul etdiyi belə bir qanunauyğunluq var: güclü həmişə haqlıdır.



Demokratiya yolundan sapmaq siyasi nadanlıq olardı.



Müxalifət son nəticədə xalqın milli dirçəlişinə imkan verən fikir və əməl zənginliyidir, daha bizim başa düşdüyümüz mənada qanlı-bıçaq olmaq deyil.



İnsafı, rəhmdilliyi itirmək ləyaqəti, insafı itirmək deməkdir.



Rəhmdillik, insaf, mürvət, böyük-kiçik, öz keçmişinə bağlılıq olmayan yerdə nə ədalət olar, nə inkişaf, nə də xeyir-bərəkət.



Xalqı ayıltmaq üçün bəzən min nəsihətdən bir fəlakət xeyirli olur.



Əsas məsələ odur ki, tarixdən kül, his-pas deyil, qeyrət qığılcımı, el-oba təəssübü, elpərəstlik ruhu, cəsarət və rəşadət hissi, bir sözlə, işıq götürülsün.



Demokratiya və aşkarlıq əgər bizim həyatımızda, işimizdə, fəaliyyətimizin bütün sahələrində dərin kök salsa, bərqərar olsa, kimin kim olduğu tez aşkarlanar.



Başsız, şəxsiyyətsiz, lidersiz xalq zülmətə düşmüş adam kimidir.

Siyasət ümumilik sevir, amma konkretlik də istəyir.

Həqiqət müxtəlif fikir toqquşmalarından parlayar.

Bayrağı qaldırmaq hər kişinin işi deyil, amma onun altına nadanı buraxmaq cahillikdir.

Ailə hər bir cəmiyyətin, dövlətin, millətin varlığının ilk rüşeymi, binasıdır. Bu binanın necəliyi xalqın neçəliyini müəyyənləşdirir.

Düşmənini tanımayan, öz torpağını və ulusunu qorumağa hazırlaşmayan ölkə məhvə məhkumdur.

Ac ölkədə avtoritarizm, totalitarizm olar, hürriyyət, azad inkişaf isə olmaz.

Məhv olmağa hazır olmayan bir xalq azad ola bilməz.

Tək-tək insanlar kimi, bəzən xalqlar da imtahan verməli olurlar, tarix qarşısında, əcdadların ruhu, qoyub getdikləri torpaq və gələcək nəsil qarşısında.

Vicdan olmayan yerdə həyat, bərəkət, dirilik də olmaz.



Nəsillərin əsrlərlə qazandığını və hifz etdiyini itirmək nə qədər əzablı və faciəlidirsə, onu yenidən ələ gətirmək yüz o qədər çətin və məşəqqətlidir.



Vətən istiqlalsız, dövlət hürriyyətsiz olmaz.



Ədalət insanın bütün əxlaqi keyfiyyətlərinin özülüdür.



İstiqlaliyyətin düşməni müstəbiddir, müstəbidin keyfiyyətləri və psixologiyası adamları əsarət altına almaq və onlara zülm etməkdir.



Tarixə nəzər salmaq ondan kül deyil, od götürməyi bacarmaq deməkdir.



Özünü tanımayan millət tarixi inkişaf yolunu və səmtini düzgün müəyyənləşdirə bilməz.



Biz keçmişimizi ona görə sorğu-suala çəkir, öyrənirik ki, bu günümüzü bizə izah etsin, tanıtsın və gələcək yolu müəyyənləşdirməyə yardım etsin.



Tarixin və taleyin hökmü ilə istiqlaliyyətə qovuşmaq böyük xoşbəxtlik, böyük səadətdir.



İstiqlaliyyət çox böyük tarixi maneələri aradan qaldırmaqla mümkün olur.



Vətən məhəbbəti, vətəndaşlıq hissi, vətənin taleyi üçün daim həyəcan və narahatlıq keçirmək ilahi hissdir, müqəddəs borcdur.



Öz tarixi keçmişi ilə vərəsəlik əlaqəsi yarada bilməyən, deməli, arxasında mənəvi boşluq olan xalqın başı dumanlı, qüvvələri pərakəndə, gələcəyi qaranlıq olar.



Cahil və nadanın əlinə odlu silah vermək ətraf üçün nə qədər qorxuludursa, siyasi mədəniyyəti, milli qeyrəti, şərəfi olmayan kəmsavadların və qələm dəllallarının əlinə söz silahı, mətbuat orqanı vermək cəmiyyət üçün ondan yüz qat qorxuludur.



Hədə-qorxu gəlmək, imperiya ambisiyası ilə danışmaq fayda verən şey deyil.



Yalan sahibsizlikdən doğur. Hər şeyin sahibi olmalıdır. Torpağın da, istehsalatın da, ev-eşiyin də, yolun da, ticarətin də.



Xalqı hər şeydən əvvəl tarixi şəxsiyyətləri ilə tanıyırlar.



Bu gün dünənin, sabah bu günün davamıdır.



Nə tarixçilər, nə də tarixi şəxsiyyətlər öz dövrlərinin tam həqiqətlərini axıra qədər deməyiblər, açmayıblar. Bunu sonrakı qərəzsiz, təmənnasız tarix elmi deməlidir.



Millətin varlığı – torpağında, mənəvi qüdrət mənbəyi keçmişindədir.



Öz gücünə, qüdrətinə və cəsarətinə, ən vacibi, gələcəyinə inanmayan xalq məhvə məhkumdur.



İnamsızlıq, hər şeyə və hər kəsə şübhə ilə yanaşmaq, vəzifə və sərvəti ideal saymaq milli fəlakətə aparan yoldur.



Tarixi reallıq, cəmiyyətin öz inkişaf yolu var. Bundan kənarda heç bir xoş güzəran yarana bilməz.



İndinin kökü keçmişdədir, keçmiş isə gələcəyin iynəsidir.



Tarixdən öyrənmək, ibrət dərsi götürmək olar. Amma tarixi imtahana çəkmək, ondan riyakar siyasi məqsədlər üçün istifadə etmək, hətta tarix üzərində mühakimə qurmaq yol verilməzdir.



Qonşularını tanımayan millət özünü də dərk edib tanıya bilməz.



Tarixdən kül, his-pas deyil, qeyrət qığılcımı, el-oba təəssübü, elpərəstlik ruhu, cəsarət və rəşadət hissi, bir sözlə, işıq götürəsən gərək.



Xalqın böyük əksəriyyətini arxasınca apara biləcək siyasi partiya olmasa qələbə olmaz.

Cümhuriyyəti öyrənmək üçün xüsusi institut lazımdır.

Dövləti demokratik düşüncəli, vətənpərvər adamlar idarə etməlidir.

Kimdənsə ummaq böyük xəstəlikdir. Gərək hər kəs vətəndaş ola. Dövlətdən tələb eləyəndə gərək birinci özün nə isə edəsən, sonra tələb edəsən.

Hərə öz əməyinin mükafatını öz vicdanından almalıdır.

Namuslu, qeyrətli, düz adamı müdafiə etmək xalqın ən birinci vəzifəsidir.

Ziyalı millətinin düşünən beyni, görən gözüdür.

Jurnalistin siyasi mədəniyyəti heç bir yazıçıda ola bilməz. Jurnalistlər günün tarixini yaradanlardır. Tarixçilər ilin.

Mən həmişə jurnalistika tarixini araşdırmışam. Kişilər var ki, bunun əsasını qoyublar. Bunları dəqiq bilməyəndə, ənənə qana daxil olmayanda vəziyyət çətin olur. Millətə xidmətin yolunu bilmək lazımdır. Millət tarixini bilməsə, millət kimi formalaşa bilməz. Kim desə ki, çətin oldu, mən millətə qulluq eləyə bilmədim, səhv eləyir. Gərək hər dövrdə onun yolunu tapasan.

Bizi irəli getməyə qoymayan düşmənçilik hissidir. Kim kimin əleyhinə tənqid deyirsə, onu qan düşməni hesab edirlər. Biz tənqidə öyrəşməmişik. Lakin

tərifi sevirik. Kim yaşadığı cəmiyyəti yaxşı tanımırsa, ondan jurnalist olmaz. Gərək yaşadığın cəmiyyəti yaxşı tanıyasan, hansı qruplar var, hansı meyllər var, bizdə hələ bizi birləşdirən milli ideologiya yoxdur. Bu ideologiyanı yaratmaq üçün gərək jurnalistlərimiz çalışsınlar.



Ölmək qorxulu deyil, ən dəhşətlisi yaşamamaqdır. Adama insan kimi yaşamaq müyəssər olmursa, o, ruhən rahat yatmırsa, gələcəyindən narahat olmursa, uşaqlarının üzünə alnıaçıq baxa bilmirsə, keçmişə, namus-qeyrətə üzünü çevirmirsə, nəhəng kişilərin ruhu ilə danışmırsa, onların qoyub dediklərini öyrənmirsə, onları özünə böyük saymırsa, yaşamaq olmur. Mənim fikrimcə iki cür dövlət var. Bunun biri maddidir. Biri isə bizim mənəvi xəzinəmizdir.

Şirməmməd Hüseynovun görkəmli şəxsiyyətlər haqqında fikirləri

*Milli iftixarımız **Üzeyir Hacıbəyli** xalqımıza çoxşaxəli, əbədiyaşar zəngin bir irs qoyub getmişdir. Bu irsə, bu əvəzsiz xəzinəyə sahib çıxmaq, onu dərindən, hərtərəfli araşdırmaq, nəşr və təbliğ etmək Müqəddəs borcdur, vacib vəzifələrdəndir.*

*Mən böyük vətənpərvər, bütün varlığı ilə torpağına və xalqına bağlı Sabirsiz istiqlalın qələbəsini təsəvvür edə bilmirəm. Oyanmamış xalq, millət, müstəqillik savaşı da apara bilməzdi. "Dürr saçan təbi ilə" **Mirzə Ələkbər Sabir** bir mücahidlər ordusunun görə biləcəyindən də qat-qat artıq iş görmüşdür.*

M.Ə.Sabirin ilham atının ədəbi-siyasi meydana çıxmasında və məharətlə çapmasında 1905-ci il inqilabından sonra Tiflisdə və Bakıda, onun kimi qeyrətli və istedadlı ziyalıların nəşr etdikləri mətbuat orqanları: "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər dövri mətbuat orqanları böyük rol oynamışlar. Cəmi 6 il: 1905-1911-ci illər ərzində M.Ə.Sabir böyük və zəngin bir irs yaratmışdır. Heç vaxt öz dəyərini itirməyəck bu irsin toplanması, dəyərləndirilməsi, tədqiqi və nəşrilə böyük bir sabirşünaslar ordusu məşğul olmuşdur.

*Azərbaycanda, hətta müsəlman-türk aləmində mütərəqqi bəşəriyyətin irəli sürdüyü elmi fikrin ən yaxşı mənimsəyəni və inkişaf etdirəni dram, hekayə və şerdən başlamış, fəlsəfə, etika, əxlaq, tənqid, dövlət, dil, təhsil, əlifba və bu kimi məsələ və problemlərdən bəhs edən, öz dövrünə görə onlara konkret və aydın cavab verən, böyük və fitri istedad, həqiqi milli qeyrət sahibi **Mirzə Fətəli Axundov** olmuşdur.*

***M.Ə.Rəsulzadənin** elmi-nəzəri, siyasi-ictimai, ədəbi-bədii və publisistik irsi çox zəngin bir xəzinədir, xalqımızın milli intibah və milli istiqbal hərə-*

katının canlı salnaməsidir. Yarım əsrlik bir zaman kəsiyində mən saysız-hesabsız dövri mətbuat orqanlarını, tarixi sənəd və memuarları nəzərdən keçirərkən bunun şahidi olmuşam.

....M.Ə.Rəsulzadə 71 il ömür sürmüşdür. Onun yalnız 32 ilini bilavasitə vətənində yaşamışdır. Bu müddətdə onun göstərdiyi nəhəng fəaliyyət Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir. Əlbəttə, sovet dövründə yazılanların hamısı məlum ideoloji və siyasi amillər səbəbilə düşmənçilik, saxtakarlıq, böhtan və iftira ilə müşayiət olunub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə Rəsulzadə irsinə münasibət tam olmasa da dəyişib. Məqsədim M.Ə.Rəsulzadənin vətənindəki fəaliyyətini, xüsusilə onun dövri mətbuatda dərc edilmiş məqalələrini, imzası ilə dərc olunmuş sənədləri toplamaq və nəşr etdirməkdir. Zənnimcə bu əsərlər tariximizin bu möhtəşəm dövrünün tədqiqi və təbliğində ən mötəbər mənbələrdən sayıla bilər.

Əhməd bəy Ağayev *kimi mütəfəkkir alim, görkəmli jurnalist-publisist, ictimai-siyasi xadimin bir əsəri belə müstəqil şəkildə onun vətənində nəşr olunmamışdır. 70 il zəngin və keşməkeşli ömür sürmüş (1869-1939), Şuşanın maarifpərvər və mütərəqqi ziyalı mühitində böyümüş, Tiflis gimnaziyasında, Sankt-Peterburq Texnoloji İnstitutunda, Fransanın ən şöhrətli Sarbonna Universitetində təhsil almış ilahiyyatçı, hüquqşünas, siyasətçi, redaktor, jurnalist, müəllim, publisist, professor, doqquz dil bilən və bu dillərin zəminində öz ictimai-siyasi dünyagörüşünü zənginləşdirən Ə.Ağayev 1909-cu ilin əvvəllərinə qədər öz doğma vətənində çox böyük və nəhəng ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində və dövrün digər nüfuzlu mətbuat orqanlarında Əhməd bəyin yüzlərcə məqaləsi dərc olunmuşdur. Ömrünün son 30 ilini isə qardaş Türkiyədə yaşamağa məcbur olmuşdur. Lakin bir an belə vətəni Azərbaycanı, anadan olduğu Şuşanı unutmamışdır.*

Abbasqulu ağa Bakıxanov *jurnalistikada ilk addımlar atan milli ziyalılarımızdan biri olmuşdur. Abbasqulu ağa Bakıxanov Qafqazda – Tiflisdə nəşrə başlayan dövri mətbuat orqanlarında da fəaliyyət göstərən jurnalistika ilə məşğul olan ilk azərbaycanlı qəzetçidir. 1828-ci ildən Tiflisdə hökumət*

orqanları tərəfindən rus dilində nəşr olunan "Tiflisskoye vedomosti", sonralar onun fars və Azərbaycan dillərində buraxılan "Tiflis əxbarı" nömrələrinin aparıcı redaktor və əməkdaşı da Abbasqulu ağa Bakıxanov olmuşdur. Əmək-sevərlik, vətəndaşlıq borcunu vətənpərvərlik düşüncəsi ilə yerinə yetirmək, qəzet işinin müasir formalarını axtarmaq, geniş bilik, ədəbi-jurnalistlik təcrübəsi və Qafqaz xalqlarının ehtiyac və arzularını dərindən başa düşmək A.Bakıxanovun qəzetçilik fəaliyyətinin canını təşkil edirdi.

***Şəhriyarın** "Heydərbabaya salam"ını gerçəkdən bir hadisə saymaq olar. Çünki bu əsər özəl bir həsrətin təpkisi ilə yazılmışdır. Bu əsər dini, siyasi, hər hansı bir amilin təsirindən azad, təbii və insani bir həsrətin, sənət vurğunu bir aşiqin həsrətilə meydana gəlmiş bir əsərdir...*

"Heydərbabaya salam"da xalq yaradıcılığının gerçək qaynaqlarından feyz alan, folklorumuzun bütün gözəllik və zənginliklərini özündə əks etdirən səmimi, təbii bir şeir çeşidi var. Çağdaş ədəbiyyat anlayışına mütabiq olan bu parlaq əsər, milli yaradıcılıq qüdrətini təmsil edən bir əzəmət və ehtişam-dadır!..

***Nəsir İmanquliyev** mənim üçün həm yüksək əxlaqi-mənəvi keyfiyyətli, hərtərəfli savadlı, təcrübəli jurnalist-müəllim, sonralar həm də səmimi və xeyirxah həmkar, qayğıkeş dost, böyük qardaş olmuşdur.*

...Nəsir müəllim Azərbaycan jurnalist kadrlarının bir neçə nəslinin xeyirxah, səmimi, qayğıkeş müəllimi olmuşdur.

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur.

*Mən **Bəxtiyar Vahabzadənin** şəxsiyyətindən daha çox əqidəsinin aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir... Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətimizdir.*



Nurəddin Rzayevi *mən Azərbaycanın müasir istiqlal mücahidlərindən – az danışıb çox iş görən, xalqını ürəkdən sevən, ona xidmət etməyi vicdani borc bilən mücahidlərindən hesab edirəm.*

Nurəddin daim öyrənməyə, mütaliə etməyə, təkmilləşməyə can atan nadir şəxsiyyətlərdəndir.



Görkəmli jurnalist, istedadlı alim ***Qulu Məhərrəmlini*** *insanlar obyektivliyinə, ləyaqətli və vicdanlı söz sahibi olmasına görə sevir və qiymətləndirirlər.*



Millət Məclisində namusu, qeyrətli, vətən məhəbbətli cavanların olması vacibdir. Mən də ***Nəsiman Yaqublunu*** *yaxşı tanıyıram. O, tariximizə, milli ruhumuza bələddir. Vətənin tarixinə bələd insandan millətə yalnız fayda olar.*

Görkəmli şəxsiyyətlər
Şirməmməd Hüseynov haqqında

Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu... Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişlərinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi: " Politiçeskoye obozreniye". Onu V.Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatlarımız yox idi.Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə yüksək qiymət verir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Şirməmməd müəllim vətənpərvərlik, düzgünlük, haqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətləri ilə bizə həmişə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış böyük əqidəli ziyalılarımızı xatırladır. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, Şirməmməd bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmuşdur.

Şirməmmədi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil.

Məndən "Şirməmməd kimdir?" – deyə soruşsalar, mən iki misra ilə belə cavab verərdim:

Şirməmməd – əxlaqın, haqqın öz səsi
Ləyaqət, dəyanət mücəssəməsi!

*****

Şirməmməd Hüseynovu tanıyan hər kəs bilir ki, onun qələmindən çıxan bütün yazıların arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır.

Bəxtiyar Vahabzadə,
Xalq şairi



Şirməmməd müəllimə mən ilk növbədə jurnalistikamızın patriarxı kimi, bu çətin və şərəfli peşənin neçə-neçə dəyərli nümayəndəsini yetişdirdiyi üçün minnətdaram... Şirməmməd Hüseynov əsl vətənpərvərdir və vətənpərvərliyi sözdə yox, əməli işdə meydana çıxır. Elmi fəaliyyətinin mühüm sahəsi böyük Məmməd Əmin Rəsulzadənin irsini nəşrə hazırlaması, "525-ci qəzet"in səhifələrində, ayrıca kitablar kimi yeni nəsillərə çatdırmasıdır.

Anar,
Xalq yazıçısı



Hamı onu "ustad" adlandırır. Bu mənada müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə inkar edə bilməz. Bu məktəbin müdavimi olmaq da hər jurnalistin gücü çatası bir iş deyil. Çünki bu məktəbin dərs yükü də ağırdır, əməl yükü də! Əbəs yerə deyil ki, uzun illərdir Şirməmməd müəllim onu yaxından tanıyan dostları, tələbələri üçün, eləcə də sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işlərə hədsiz sevgi və sədaqətin, həm də prinsipiallığın, işgüzarlığın, obyektivliyin simvolu olaraq qalmaqdadır.

Oljas Süleymanov,
Qazax şair-yazıçısı



Şirməmməd müəllim seçdiyi ixtisasın – jurnalistikanın müəllimi və tədqiqatçısı, ixtisasını şərəflə qoruyan bir mütəxəssisdir. O, ömrünü həsr etdiyi müəllimlik şərəfinə xələl gətirən nöqsana yol verməyib. Heç kim inciməsə deyərdim ki, bu gün işlədiyi jurnalistika fakültəsinin təmiz dünyası da birbaşa onun təmizliyə, təmənnasızlığa bağlı xarakteri ilə formalaşıb.

Vasim Məmmədəliyev,
akademik

Azərbaycan mətbuat tarixinin tədqiqi sahəsində mühüm xidmətləri olan qocaman jurnalist, professor Şirməmməd Hüseynov Üzeyir bəyin məqalələrini toplayıb iki cilddə nəşr üçün hazırlamışdır. 115 məqalədən ibarət birinci cild 2009-cu ildə, vaxtilə zədələndiyi (düzdür) üçün tam mətni bərpa olunmuş məqalələr isə ikinci cild kimi 2010-cu ildə "Elm" nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmışdır.

Bəkir Nəbiyev,
akademik

Tanrı, tale, tarix Şirməmməd Hüseynov kimi nadir insanları millətə göndərir ki, cərəyan ötürən naqilə çevrilsinlər, qoymasınlar yaddaş qırılsın, imkan verməsinlər keçmişlə rabitələr kəsilsin. Şirməmməd Hüseynov milli yaddaş daşıyıcısı, bir mənəviyyat körpüsüdür. Azərbaycanın dünəniylə indisi, istiqlalımızın qaynaqları ilə bu gün arasındakı körpü. Şirməmməd müəllim qiymətli bir insandır və Allah da bizdən daha əvvəl və daha yaxşı bilir nə qədər qiymətlidir o!

Rafael Hüseynov,
akademik

Şirməmməd Hüseynov bir neçə missiyanın daşıyıcısıdır: müəllimlik, mətbuat tariximizin ünlü tədqiqatçısı, millət fədaisi, həqiqət carçısı! Bütün bunların önündə ona görə "müəllimlik" dayanır ki, o, hər şeydə, hər anda öncə müəllimdir.

Nizami Cəfərov,
akademik

Şirməmməd Hüseynovun ömrünün 60 ili Bakı Dövlət Universiteti (BDU) ilə bağlıdır. Azərbaycan jurnalistlərinin böyük bir nəsli ondan dərs alıb, onun yetirməsidir. Şirməmməd Hüseynov dünyanın heç nəyinə uymadan təmkinli həyat sürüb, şərəfli ömür yaşayıb. O, bütün zamanlarda heç nədən çəkinmədən öz sözünü deyən görkəmli ziyalımız idi. O, nər kişi idi, mərd kişi idi, sovet dönəmində tələbələrinə millət sevgisi aşılayırdı. Mən bunların çoxunun şahidiyəm.

Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır.

Yaqub Mahmudov,
akademik

Şirməmməd Hüseynovla bağlı ilk və unudulmaz təsəvvürüm sonralar onun elmi-pedaqoji fəaliyyətini izləməklə daha da dolğunlaşdı. Atdığı addımlara, yazdığı əsərlərə baxıb bir daha inandım ki, Şirməmməd Hüseynov sovet dövründə Azərbaycan Xalq Cümhuriyyəti ilə bugünkü dövlət müstəqilliyimiz arasında mənəvi körpü rolunu oynayan, milli istiqlal atəşinin ürəklərdə ölməsinə imkan verməyən nadir ziyalılarımızdan biridir.

Muxtar Kazımoğlu,
akademik

Şirməmməd müəllim sadiq dost və gözəl insandır.

Şirməmməd müəllimi heç vaxt, heç yerdə soyuq, biganə, ürəksiz, cəsarətsiz danışan görmədim. Həmişə ən vacib, ən yaxşı bildiyi şeylərdən, ən əsası millətin tale məsələlərindən danışır. Buna görə də yüksək səslə və cəsarətlə danışır. Məncə, onun uzun və şərəfli yaşamağının bir səbəbi də budur.

Sabir Rüstəmxanlı
Xalq şairi

2024-cü il iyun ayının 24-də Şirməmməd Hüseynovun fani dünyamızı tərk etməsinin 5 ili tamam olur, lakin bu beş ildə o, yalnız cismani olaraq yanımda deyil. 60 illik birgə ailə həyatımız bu gün də "onunla davam edir". Tək mənimləmi? Bu gün də, məni tanıyanlar, adi vətəndaşlar, keçmiş tələbələri, həmkarları mənimlə rastlaşanda mütləq yaxınlaşıb Şirməmməd müəllimi xatırlayıb, haqqında xoş sözlər deyirlər.

Görəsən, adi bir müəllimə bu qədər məhəbbət nədən qaynaqlanır? Nahaq deməyiblər ki, xalqın gözü "tərəzidir" və bu "tərəzi" heç vaxt səhv etmir. Bu məhəbbət onun Azərbaycana, Vətəninə, millətinə təmənnasız xidmətindən qaynaqlanır.

Ülkər Hüseynova,
Şirməmməd müəllimin həyat yoldaşı

Atam çox şərəfli və ləyaqətli ömür yaşayıb. O, Bakı Dövlət Universitetini özünün birinci evi hesab edirdi. BDU onun düşüncəsində Azərbaycanın modeli idi. Biz uşaq olanda onun ən böyük arzusu Azərbaycanı müstəqil görmək idi.

Mən inanıram ki, atamın ruhu BDU-nun divarlarında yaşayacaq.

Fərəh Əliyeva,
Əməkdar incəsənət xadim,
sənətşünaslıq üzrə elmlər doktoru

Atamın sözü də, əməli də bir idi, düz idi. O çox bütöv insan idi. Atam bir müəllim kimi çox ciddi insan idi, sərt idi, amma eyni zamanda çox da qayğıkeş idi. Tələbələrini yaxşı tanıyırdı, öz qiymətlərini verirdi. Müəllim nüfüz qazanmaq istəyirsə, birinci növbədə bilikli, ikinci növbədə ədalətli olmalıdır. Əgər müəllimdə bu iki keyfiyyət varsa o, tələbənin hörmətini qazanmış olur. Atamda bu keyfiyyətlərin hamısı var idi.

Anam həmişə düzlük, dürüstlük, ədalət yolu ilə addımlayan atama dayaq olub. Atam da, anam da ikisi bir tam idi, hər cəhətdən. Onlar üçün həyatda ən əsas mənəvi dəyərlər olub, hər zaman.

Lalə Hüseynova,
Əməkdar incəsənət xadimi,
Professor

Şirməmməd müəllim böyük şəxsiyyətdir. Nurani bir insandır. Böyük alimdir, sevilən müəllim, bacarıqlı tədqiqatçıdır.

Şirməmməd Hüseynov hər kəsdən öncə universitet müəllimidir. Universitet sözünün dövlətə, millətə, xalqa bağlılığını lap cavan çağlarından diqqətdə saxlayan bu müəllim ömrünün bütün şüurlu dövrünü tələbələrinin, deməli, gənc nəslin Azərbaycan və azərbaycançılıq, milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, azad fikirlilik, yaradıcılıqda dəqiqlik, obyektivlik, vicdanlılıq keyfiyyəti ilə böyüməsinə xüsusi tələbkarlıqla yanaşmış, təkcə işlədiyi kollektivin – Bakı Dövlət Universitetinin deyil, bütövlükdə Azərbaycan ictimaiyyətinin hörmətini qazanmışdır.

Abel Məhərrəmov,
akademik

Şirməmməd müəllim elm fədaisidir. Xüsusən milli məfkurəmizin – azərbaycançılığın banisi, milli ideyalarımızın "böyük mürşüdü" Məhəmməd Əmin Rəsulzadənin irsinin öyrənilib təbliğ edilməsində Şirməmməd müəllim misilsiz xidmət göstərir".

Tofiq Köçərli,
akademik

Bu gün yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyimiz ziyalılar o vaxt bizə partiyalı mətbuatdan dərs deyirdilər. Yeganə bir inqilabçı müəllimimiz vardı ki, o zaman adı ancaq universitetlə bağlı adamlara və yəqin ki, DTK əməkdaşlarına məlum idi – indi ən yaxşı şərhçilər sırasında tanınan Şirməmməd Hüseynov. Beş illik tələbəlik dövründə təkcə o bizi inqilaba, azadlığa, müstəqilliyə səsləyirdi. Təkcə o, düzə-düz, əyriyə əyri deyirdi. O, bütün inqilabi dəyişiklikləri irəlicədən görürdü və öz inamını, öz arzularını qətrə-qətrə bizə yeridirdi.

Afaq Məsud,
Xalq yazıçısı

Əgər məndən xəbər alsaydılar ki, son əsrin ən yüksək bəşəri və milli şüurlu və vicdanlı Azərbaycan jurnalisti kimdir, bir an belə düşünmədən Şirməmməd müəllimin adını çəkərdim. Bir birini gah təsdiqləyən, gah inkar edən və kiçik, uzun və qısa ömürlü jurnalistlərimiz olmuşlar və vardır, amma Şirməmməd müəllim kimilərini tapmaq çox çətindir.

Nurəddin Rzayev,
Əməkdar elm xadimi

Namuslu və xeyirxah insanlar kütləsi böyükdür, Raxmetov kimi adamlar isə azdır. Onlar ən yaxşı insanların yaxşısıdır, mühərriklərin mühərrikidir, dünyanın canının, cövhərinin cövhəridirlər. Mən heç mübaliğə etmədən, qəlbimə heç bir qara hiss yaxın qoymadan Şirməmməd Hüseynovu da tərəddüdsüz, müasir Raxmetovlardan biri sayıram.

Qulu Xəlilov,
Əməkdar elm xadimi

Mən Şirməmməd müəllimi ədalət tərəfdarı, prinsipiallıq meyarı kimi çox istəyirəm.

Vaqif Bəhmənli,
Əməkdar mədəniyyət işçisi

Şirməmməd müəllimin zəhmətkeşliyi, fədakarlığı, klassik irsə, milli dəyərlərə münasibəti bizi heyrətləndirirdi və hamımız ondan necə məsuliyyətli olmağı öyrənirdik. Hər xırda söz, hadisə Şirməmməd müəllim üçün əhəmiyyətli idi və hər məsələyə dəqiqliklə yanaşırdı.

Rəşad Məcid,
Əməkdar mədəniyyət işçisi

Şirməmməd müəllim mənim elmə yolumu açmaqla yanaşı, öz əməli ilə şəxsiyyətimi də möhkəmləndirən, məni sınmağa, inamımı sönməyə, ruhumu ölməyə qoymayan Nəhəng insandır!

Solmaz-Tohidi Rüstəmova,
Əməkdar elm xadimi
tarix elmləri doktoru

Şirməmməd müəllim bütün düşüncəsi, ağlı və fəaliyyəti ilə demokratik ruhlu, demokratik düşüncəli idi. Az qala, Xalq Cümhuriyyəti ilə həmyaşıd olan müəllimim bir azadlıq mücadiləsi aparırdı. Deyim ki, bu gün bizim müasir qüdrətli ölkə rəhbərlərimizin misilsiz xidmətləri nəticəsində müstəqil, azad düşüncə ilə yaşayırıqsa, bu çətin və mürəkkəb yolda dəstək verənlərdən, mücadilə edənlərin cərgəsindəki ilk sırada mənim əziz müəllimim Şirməmməd Hüseynov dayanırdı və onun böyük xidmətləri vardır!

Rafiq Rəhimli,
Əməkdar mədəniyyət işçisi

Mənim üçün ikiqat şərəfdir ki, "Şirməmməd Hüseynov" mükafatını tanış simaların əhatəsində alıram. Şirməmməd Hüseynov böyük alim və tarix elmimizə töhfə vermiş bir şəxsiyyətdir. Bizim ailəyə həmişə yüksək diqqət yetirib. Mükafata görə qürur duyuram.

Rais Rəsulzadə,
Əməkdar rəssam
Məhəmməd Əmin Rəsulzadənin nəvəsi

Azərbaycanda dövlət mükafatları da daxil olmaqla bir çox mükafata layiq görülmüşəm. Ancaq mənim üçün "Şirməmməd Hüseynov" mükafatının yeri ayrıdır. Hamımız Şirməmməd müəllimin tələbəsiyik. O, yazılarımla maraqlanırdı. Bir dəfə görüşəndə mənim yazımdan bəhs etdi. Dedim ki, vaxtınızı ayırıb, cızma-qaralarıma baxdığınıza görə təşəkkür edirəm. O isə bildirdi, ki, "özünü aşağı tutma, sən alimsən". Məndə hər zaman istək olub ki, öyrəniləcək məsələləri tədqiq edim. Polşada Azərbaycan mühacirətini tədqiq etmişdim. Mükfatlandırmanın olması insana özünü yaxşı hiss etdirir. Çünki bilirsən ki, onu dəyərləndirənlər var. Buna görə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Mənim üçün "Şirməmməd Hüseynov" mükafatının yeri ayrıdır.

Vilayət Quliyev
filologiya elmləri doktoru, professor

Şirməmməd hələ aspirant illərindən Azərbaycanın böyük vətənpərvəri idi. O, elmi işində də, həyat qaydalarında da, dünya baxışında da həmişə azərbaycanlıydı. Biz başqa əyləncələrə sərf etdiyimiz vaxtda Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı.

Yasen Nikolayeviç Zasurski,
M. V. Lomonosov adına
Moskva Dövlət Universitetinin professoru

Şirməmməd müəllim çox sanballı adamdır. Jurnalistika şöbəsi filologiya fakültəsindən ayrılıb ilk dəfə fakültəyə çevriləndə onun dekanı Şirməmməd

Hüseynov oldu. O, 6 il fakültənin dekanı işlədi və fakültəni çox genişləndirdi. Əvvəla tələbələrin qəbul sayını artırdı, rus sektorunu da əlavə elədi, fakültəni gözəl bir tədris ocağına çevirdi.

Şamil Qurbanov,
filologiya elmləri doktoru, professor

Şirməmməd müəllim son illərdə xüsusilə gərgin işləyir. Universitetdə pedaqoji işlə yanaşı, qəzet-jurnallarda beynəlxalq həyatın, milli hərəkatın, milli müstəqillik və dövlətçiliyin, klassik demokratik-publisistik ənənələrin problemləri ilə əlaqədar çıxış edir, böyük öndərimiz Məmməd Əmin Rəsulzadənin çoxcildlik əsərlərinin tərtibi və nəşri ilə məşğul olur.

Şirməmməd müəllim elmdə, siyasətdə havayı güllə atanlardan deyildir. O zaman söz silahına sarılır ki, ürəyində deməmək mümkün olmayan sözü, zirehi dəlib keçən gülləsi hədəfi sərrast seçir.

Famil Mehdi,
filologiya elmləri doktoru, professor

Şirməmməd Hüseynovun yeni və dəbdə olan terminlə desək, müəllimlik imici klassik mahiyyət daşıyır. Ə.Haqverdiyev, A.Şaiq, Y.Məmmədəliyev və b. kimi klassik müəllim keyfiyyəti ona da xasdır. Bu keyfiyyətin başında azərbaycançılıq dayanır.

Cahangir Məmmədli,
filologiya elmləri doktoru, professor

İndi ölkəmizdə elə qurumlar var ki, onlar böyük şəxsiyyətlərin əxlaq, mənəviyyat, elm dərsləri ilə formalaşıb yeni nəsillərin yaşam devizinə çevrilmişdir. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi professor Şirməmməd Hüseynovun xalqımıza bəxş etdiyi, fəxr ediləsi bir ünvandır.

Şirindil Alışanlı,
filologiya elmləri doktoru, professor

Şirməmməd müəllim sözün həqiqi mənasında Azərbaycan xalqının sərvətidir və xalqımız üçün olduqca dəyərli bir şəxsiyyətdir.

Vüqar Əhməd,
filologiya elmləri doktoru, professor

Klassik publisistik irsimizin toplanması, yenidən nəşri, tədqiqi və təbliği sahəsində professor Şirməmməd Hüseynovun 1980-ci illərin sonlarından başlanan fəaliyyəti öz məzmunu, xarakteri və miqyasına görə başqalarından xeyli dərəcədə seçilir. Belə ki, Ş.Hüseynov klassik publisistik irsimizə sadəcə olaraq onları nəşr etmək və ya haqlarında elmi tədqiqat işi yazmaq xatirinə müraciət etmir. O, keçmişlə bu gün arasındakı irsi və milli əxlaqı sələf-xələflik əlaqələrinin kodlarını və bağlarını görərək bu əlaqələri yenidən canlandırmaq məqsədi güdür.

Alxan Bayramoğlu,
filologiya elmləri doktoru, professor

Müstəqil Azərbaycan Dövlətinin qurucuları olan böyük düha sahibləri, tərəqqipərvər, millətsevər şəxsiyyətlər, xalqımızın tarixində silinməz izlər qoyan istiqlal mücahidləri müstəqilliyimiz uğrunda mübarizələrdə adlarını tarixin qızıl səhifələrinə yazdıqları kimi, istiqlalçı alim Şirməmməd Hüseynovun da adı onların zəngin və ölməz ədəbi irsinin yorulmaz təbliğatçısı və milli təəssübkeşi kimi xalqımızın qəlbində əbədi yaşayacaq.

Gülbəniz Babayeva,
filologiya üzrə fəlsəfə doktoru

Şirməmməd müəllimin həyat yolu da bir məktəbdir. Bu məktəb yorulmaq bilmədən xalqın başını uca edən, onu yaşadan, tərəqqi və təkamülünü istiqamətləndirən, mühafizə və müdafiəsini təşkil edən millət fədaillərini yorulmaq bilmədən öyrənmək və öyrətməkdir. Hər bir yazıçı keçmişimizi sorğu-suala

çəkməklə bu günümüzü izah etməyə və gələcək yollarımızı müəyyənləşdirməyə xidmət edir, bir sözlə, keçmişimizdən bu günümüzə və gələcəyə körpü salır.

Aygün Əzimova,
filologiya üzrə fəlsəfə doktoru

Şirməmməd Hüseynovun xalq arasında ən böyük xidməti Ü.Hacıbəyov, Həsən bəy Zərdabi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov kimi böyük şəxsiyyətlərin həyat və yaradıcılığının tədqiq olunmasında ənənəvi yollarla getməməsi, onların fəaliyyətinin indiyədək işıqlandırılmamış hissəsinin aşkar edilməsinə can atmasıdır.

Tofiq Yusifov
filologiya üzrə fəlsəfə doktoru

Şirməmməd Hüseynov mənim jurnalistika fakültəsində oxuduğum illərdə ən yaddaqalan fənlərlə yanaşı, həm də həyat dərsi keçən və vətəndaş kimi formalaşmağımda rol oynayan insan olub. Məni milli mətbuatımızın, xüsusilə Cənub mətbuatımızın az öyrənilmiş, diqqətdən kənarda saxlanmış tərəflərini arayıb-araşdırmağa da Şirməmməd müəllim həvəsləndirib, yönəldib.

Pərvanə Məmmədli,
filologiya elmləri doktoru

Şirməmməd müəllim bütün enerjisini, qüvvə və bacarığını kütləvi informasiya vasitələri üçün qabiliyyətli, işgüzar kadrların yetişdirilməsinə, Azərbaycan jurnalistikası tarixinin dərinliyi ilə, mükəmməl şəkildə öyrənilməsinə sərf etmişdir. Bizim kimi yüzlərlə, minlərlə keçmiş, həmçinin indiki tələbələrinə narahat, məsuliyyətli peşənin sirlərini öyrətmiş, Vətənə, xalqa sədaqətlə xidmət etməyin yollarını göstərmişdir. Həm də sözlə yox, işlə, əməllə.

Qürurunu qoruması, nəfsinin toxluğu Şirməmməd müəllimin ən böyük məziyyətlərindəndir. Onun xalqı, Vətəni, oxucuları... qarşısında xidməti isə daha böyük, daha əzəmətlidir.

Mahmud Mahmudov,
filologiya elmləri namizədi

Şirməmməd müəllim nədən və necə yazmağı yaxşı bilir. Onun özünəməxsus üslubu və dəsti-xətti var. Şirməmməd müəllimin publisistikası klassiklərimizin (H.Zərdabinin, M.A.Şahtaxtlının, Ü.Hacıbəylinin, M.Ə.Rəsulzadənin, C.Məmmədquluadənin və b) ənənələrindən güc-qüvvət almışdır. Odur ki bu yazılar, məqalələr oxunandır, maraqlıdır. Bu yazılarda sərt faktlarla yanaşı, tənqid də, yumor da, istehza da müşahidə olunmaqdadır. Bu məqalələri oxuyan oxucu yorulmur, faktlardan da bezmir, məlumatlardan isə özündə qeydlər aparır.

Nəsiman Yaqublu,
tarix elmləri doktoru, professor

Hər bir yazıçı, alim ictimai-siyasi müstəvidə epizodik missiyasını dərk etməlidir. Məsələn, Şirməmməd Hüseynov kimi. O, Azərbaycan ziyalısı üçün ciddi bir örnəkdir. Öz epizodik rolunu gözəl bilir. Heç vaxt pisliyə xidmət etmir. Arada bir çıxıb anladığı həqiqətləri deyir və çəkilib yenidən peşəkar fəaliyyətini davam etdirir. Bütöv Azərbaycan intelligensiyasını, mədəniyyət daşıyıcısını bu tendensiyaya gətirmək lazımdır.

Fazil Mustafa,
fəlsəfə üzrə fəlsəfə doktoru,
ictimai-siyasi xadim

Şirməmməd müəllim haqqında danışanda adının önündə çoxsaylı epitetlər qoymağa çalışırlar. "Böyük alim", "görkəmli tədqiqatçı", "jurnalistikamızın patriarxı", "jurnalistika elmimizin korifeyi", "qeyrətli vətəndaş" və s. Beləcə ildən-ilə pərəstişkarları onun kimliyini, şəxsiyyətini layiqincə xarakterizə edə biləcək daha nadir, daha bəlağətli, daha sanballı ifadələr axtarıb tapmağa və sanki bununla ona olan, lakin özünün iddiasında bulunmadığı bir mənəvi borcun öhdəsindən gəlməyə, əvəzini verməyə çalışırlar. Son günlərdə eşitdiyim "millətin mühəndisi", "müasir milli düşüncəmizin arxitektoru", "millətin müəllimi" kimi fəxri adlar da Şirməmməd Hüseynova xalq sevgisinin, ziyalı rəğbətinin, tələbə məhəbbətinin doğurduğu ən səmimi duyğulardan qaynaqlanır.

Cavanşir Feyziyev,
fəlsəfə üzrə fəlsəfə doktoru,
ictimai-siyasi xadim

Şirməmməd Hüseynov əsl vətəndaş idi. O, vətənə, xalqa, dövlətə daim ləyaqətlə xidmət edib, çağdaş jurnalistikamızın formalaşmasında müstəsna xidmətlər göstərmişdir.

Şirməmməd Hüseynovun Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır. Elmi fəaliyyətini Azərbaycan mətbuat tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir. O, bir sıra dövlət mükafatlarına layiq görülmüş, Prezident İlham Əliyevin Sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif edilmişdir.

Elçin Babayev,
fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru

Mənim üçün Şirməmməd müəllim böyük alim, böyük müəllim və böyük vətəndaş idi. Həmişə ustadı-əzəm deyə müraciət edirdim. Rəsulzadə irsinin millətin ruhuna hopmasında müstəsna xidməti oldu ustadı-əzəmin. Allah ona uzun ömür verdi və hələ heç kim Allahın verdiyi uzun ömürdən Şirməmməd müəllim kimi millət üçün, xalq üçün, milli yaddaş üçün belə səmərəli istifadə etməmişdi. İşıq axtarışında idi. Axtardığı işığı Rəsulzadədə tapmışdı. Məmməd Əmin sevdalısı idi. Zərrə-zərrə böyük qurucunun irsini toplamaqla özü də millətin zərrəsinə çevrildi.

Ramiz Abutalıbov,
diplomat-siyasətçi

Şirməmməd müəllim milli yaddaşımızın daşıyıcısı idi, əsərləri Azərbaycanın dünəni və bu günü arasında mənəvi körpü rolu oynayırdı. Müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Bu nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin xəzinədir.

Vüqar İsgəndərov,
politoloq

Tarix bizə qədər olub və bu gün də davam edir. Onun nəbzini tutmaq faydalı olduğu qədər də son dərəcə məsuliyyətlidir.

Əgər bu elmdirsə, onun adı tarixi yaşayıb yaşatmaqdır. Çox şərəfli missiyadır banilərin cərgəsində olmaq. Şirməmməd müəllim də ordadır – banilərin sırasında.

Tofiq Abbasov,
politoloq

Şirməmməd müəllim yaşamaq, çalışmaq, yaratmaq və həyat eşqi bitib tükənməyən bir insan idi. Sözünün dürüstlüyü, milli xarakteri, mütəfəkkir düşüncəsi onun yaradıcılığının qayəsini təşkil edir.

Bu gün minlərlə insan onun jurnalistika fakültəsində dərs dediyi auditoriyasında olmadan belə Şirməmməd Hüseynovu özünə müəllim hesab edir, ustad bilir. Mən də onlardan biriyəm. O, həm də mənim ustadımdır.

Umud Mirzəyev,
ictimai xadim

Şirməmməd Hüseynov jurnalistlərin xatirələrində

Ustadımız Şirməmməd Hüseynovun üç xoşbəxtliyi vardı. Birincisi, xalqı çox sevirdi və xalq da onu çox sevirdi. İkincisi, cümhuriyyət quranlar kimi özünü bu millətə, bu dövlətə fəda eləmişdi. Allah da arzularını həyata keçirmək üçün ona sağlamlıq və uzun ömür qismət eləmişdi ki, xəstələnmədən quş kimi uçub getdi. Üçüncüsü də, onun müqəddəs ailəsi, Ülkər xanım kimi həyat yoldaşı olması.

Aqil Abbas,
Əməkdar jurnalist,
ictimai-siyasi xadim

Mən dəfələrlə Şirməmməd Hüseynov məktəbinin müdavimləri ilə bir sırada əyləşib onun şirin ləhcəli düzümlü-biçimli, həm də cəsarətli müha-zirələrini, valideyn nəsihətlərinə bənzər söhbətlərini dinləmişəm. Bütün bunlar romantik təxəyyülün təsvirləri olsa da, müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə dana bilməz. Bu məktəbin sonadək müdavimi olmaq, necə deyərlər, hər jurnalistin işi deyil. Dərs yükü də ağır, əməl yükü də. Bunu mən demirəm, dünənki və bugünkü tələbələri etiraf edir. Elə mənim özüm də onun fikir dünyasından nələrsə əxz etməkdə həmişə maraqlıyam. Çünki bu böyük insanı tutduğu yoldan döndərmək, tapındığı əqidədən sapdırmaq mümkün olmayıb, onun inancı da, nifrəti də, məhəbbəti də sonadəkdir.

Əflatun Amaşov,
Əməkdar jurnalist

Şirməmməd Hüseynov Cümhuriyyətlə aramızdakı canlı bağlardan biri idi... Tanrı xalqımızı çox sevdiyi üçün onu 95 il yaşatdı. Tanrı Şirməmməd Hüsey-novu çox sevdiyi üçün ona Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini görməyi nəsib etdi...

Mənim üçün Şirməmməd Hüseynov qaranlıqdan görünən bir ovuc işıqdır – azdığın bütün istiqamətlərdən səni özünə doğru çəkəcək. Təbii ki, əgər sən bunu istəsən!

Elçin Mirzəbəyli,
Əməkdar jurnalisti, şair

Şirməmməd Hüseynovun güclü məntiqi və nüfuzedici intonasiyası var, müsahibini tez inandıra bilir. Cazibədar və təsirli nitqi var, adamı dərhal ovsunlayır. İti ağlı, parlaq zəkası, qeyri-adi düşüncə tərzi və dərin biliyi var, ondan həmişə nəsə öyrənmək olur. O, həqiqətə və öz həyat prinsiplərinə sadiqdir, odur ki, həmişə öz dili ilə danışır. Yalnız öz sözünü deyir. Yaltaq və savadsızları sevmir, diletantlara qarşı barışmazdır, hər işində peşəkar səviyyə və heyrətamiz akademik səliqə var. Təbiətcə bir az sərtdir, zəhmlidir, nöqsanları üzə deməkdən, açıq tənqiddən çəkinmir, bu səbəbdən də ondan ehtiyatlanır, bəzən də qorxurlar. Həm də obyektiv, ədalətli, rəhmdil və xeyirxahdır. Həyatı boyu həmişə haqqı pozulanın yanında olub.

Qulu Məhərrəmli,
Əməkdar jurnalist

Azərbaycanda bir Şirməmməd Hüseynov fenomeni də var. Bu adamın Azərbaycan sevgisi məndən ötrü Məhəmməd Əmin Rəsulzadənin eşqindən balaca deyil.

O – nun haqqında mən ancaq belə yaza bilərəm. "O" hərfindən sonra mütləq defis qoymaqla. Çünki O – ndan başlanan hər şey, O – nunla bitən hər şey Şirməmməd müəllimə aid olsa da həm də O – ndan bir defis qədər aralı, əlçatmazdır.

İdeallaşdırıram? Ola bilər!

İfrata varıram? Ola bilər!

Müqəddəsləşdirirəm? Ola bilər!

Ona görə ki, O liderdir, İfratdır, Müqəddəsdir.

Şirməmməd Hüseynov məndən ötrü təpədən dırnağa Dövlətə, Cümhuriyyətə, Respublikaya oxşayan insandır.

Mirşahin Ağayev,
Əməkdar jurnalist

Çox olub, ən müxtəlif məclislərdə Onun haqqında söhbət düşəndə, ya da təsadüfən televiziya ekranında görəndə ətrafımdakılara xüsusi əda ilə, qürrələnə-qürrələnə "Şirməmməd müəllim mənə dərs deyib " – deməyim. Aydındır ki. bu hərəkətin məğzində bir özümü öymək duyğusu gizlənib həmişə. Yəni mən elə-belə adam deyiləm, baxın görün kimdən dərs almışam! Və bu davranışı müxtəlif illərdə jurnalistika fakültəsində oxumuş, Şirməmməd müəllimdən dərs almış başqa çox adamlardan da, həm də dəfələrlə görmüşəm.

Yusif Rzayev,
Əməkdar jurnalist

Şirməmməd Hüseynov bu gün milli jurnalistikamızın canlı korifeyidir və onun zəngin elmi, publisistik irsi uzun illər yeni nəsillərin tədqiqat obyekti olacaqdır. Şirməmməd müəllim məktəb yaratmış nadir jurnalist alimlərdəndir. Tələbələri, peşə, ideya davamçıları onun şəxsində, hərəkət və əməllərində öz arzularının təcəssümünü görürlər. Şirməmməd müəllimin parlaq nümunəsi millətə, dövlətçiliyimizə, azad sözə və düşüncəyə xidmət etmək istəyən hər kəs üçün örnəkdir.

Məsaim Abdullayev
Əməkdar jurnalist

BDU-nun jurnalistika fakültəsi bəlkə də yeganə yerdir ki, heç bir müəllim heç bir tələbə qarşısında gözükölgəli deyil. Bunu məzunlar da təsdiq edə bilər, bugünkü tələbələr də. Və bu halallıq ənənəsinin müəllifi məhz uzun illər fakültədə müxtəlif rəhbər vəzifələrdə işləmiş professor Şirməmməd Hüseynovdur.

Nəsir Əhmədli,
Əməkdar jurnalisti

Jurnalistikamızın, jurnalist təhsilinin təəssübünü çəkmək, sənətimizi yabançı təsirlərdən qorumaq, milli mənafe və milli dəyərlərimizin keşiyində dayanmaq Şirməmməd Hüseynov publisistikasının aparıcı istiqamətlərindən olmuşdur.

Azərbaycanda ali jurnalistika təhsili inkişafının 60 illik bir dövrü professor Şirməmməd Hüseynovun adı və məhsuldar elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Bu dövrün yetirmələri olan Bakı Dövlət Universitetinin 3 minə qədər jurnalist diplomlu məzunu Şirməmməd müəllimi öz ustadı bilmiş və yeni gələn jurnalist tələbə nəsli də belə bir ustaddan dərs almaları ilə fəxr etmişlər.

Yalçın Əlizadə,
Əməkdar jurnalist

Mən Şirməmməd müəllimdən çox şey öyrənmişəm. Bunlardan ən başlıcası təmizlikdir. Müəllim-tələbə münasibətlərində müəllim adını billur təmizliyinlə qorumalısan. Bir də müəllimdə ən vacib keyfiyyət obyektivlikdir. Müəllim həmişə, hər yerdə obyektiv olmalıdır. Bu iki xüsusiyyəti Şirməmməd müəllim həmişə yüksək qiymətləndirir.

Aqşin Babayev,
Əməkdar jurnalist

Mən Şirməmməd müəllimin auditoriyada dərs dediyi tələbələrdən olmamışam. İlk tanışlığımız M.F.Axundov adına kitabxananın arxiv şöbəsində olub. O zaman superdövlət olan SSRİ dağılmamışdı və arxivlərdə "açılmamış səhifələr"in, "tam məxfi" qrifi ilə saxlanan materialların qeyri-adi, bir qədər də romantik cazibəsi vardı. Şirməmməd müəllimin şövq və zövqlə, həssaslıq, sərişdə və səliqə ilə həmin materiallar üzərində işləməsi, seçim və təhlil meyarları məndə alimə qarşı böyük rəğbət oyatmışdır.

Şamil Vəliyev,
Əməkdar jurnalist

Professor Şirməmməd Hüseynovun bir əsrə yaxın mənalı ömrünün, ali jurnalistika təhsili və aspirantlıq illərini də götürsək, 75 ili professional jurnalistikamızın ən yaxşı ənənələrinin yaşadılıb – zənginləşdirilməsi ilə bağlı olmuşdur. O, milli jurnalistikamızın son iki epoxasında – kommunist jurnalistikası daxilində milli təmayülün qorunub saxlanmasına və müstəqillik ərə-

fəsindən başlayaraq ömrünün sonunadək demokratik mətbuatın əsaslarının dirçəldilib möhkəmləndirilməsinə bacardığı qədər kömək etmiş və təkan vermişdir.

Tahir Aydınoğlu,
Əməkdar jurnalist

Şirməmməd Hüseynov həm də beynəlxalq icmalçıdır. Bizə xarici ölkə mətbuatından dərs deyirdi. Savadlı, məlumatlı, bilikli, olduqca məntiqli insandır. Danışığı da əsl şəkili ləhcəsi... Di gəl belə dərsdə darıx. Heç yorulmazdıq. Əksinə vaxt bitəndə heyfsilənərdik...".

Flora Xəlilzadə,
Əməkdar jurnalist

Şirməmməd Hüseynovun bir jurnalist və bir tədqiqatçı kimi ən böyük xidmətini Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırmasında görürəm. O heç bir yardım almadan bu Cümhuriyyətin banisi Məmməd Əmin Rəsulzadənin irsini böyük çətinliklərlə axtarıb tapmış və onun əsərlərini çap etməyə başlamışdır. Bu əvəzedilməz fədakarlıqdır.

Hacı Hacıyev,
Əməkdar jurnalist

Şirməmməd müəllimin tədqiqatçı alim və publisist kimi fəaliyyətini görəndə, gənclik dövrü ilə indiki dövrünü müqayisə etdikdə çox az fərq nəzərə çarpır, yəni professor gənclik illərindəki kimi yenə də fəaldır, daim axarışdadır. Vaxtilə dərs dediyi tələbələri indi onunla çiyin-çiyinə çalışır, jurnalistikanın sirlərini gənc nəslə öyrədirlər. Onlar öyrədirlər, bununla belə, yenə də əvvəlki kimi Şirməmməd müəllimdən yorulmazlığı, dəqiqliyi, tələbkarlığı öyrənirlər.

Həmid Vəliyev,
Əməkdar jurnalisti

Şirməmməd Hüseynov Azərbaycan jurnalistikasının canlı klassiki və mətbuat fədaisidir. O uzun illərdir ki, milli mətbuatımızın qatı açılmamış sahələrini arxivlərdən böyük vətənpərvərliklə, tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb üzə çıxararaq nəşr etdirir. Onun müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Bu nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin xəzinədir. Ədalətlilik, prinsipiallıq, qətiyyətlilik, nəciblik, xeyirxahlıq kimi insani keyfiyyətlər Şirməmməd Hüseynovun xarakterinə xas olan xüsusiyyətlərdir. Biz həmişə müəllimimizin bu yüksək keyfiyyətləri ilə fəxr etmişik.

Aslan Aslanov,
Əməkdar mədəniyyət işçisi,
jurnalist

Hamı onu "ustad" adlandırır. Onu "canlı tarix", "yeriyən əfsanə", "dövrümüzün Zərdabisi", "bizim Şirməmməd müəllim" deyə çağıranlar da az deyil. Çünki o, indi də Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq kimi klassik müəllimlərin fəaliyyətini bütün ruhu ilə bir məktəb olaraq yaşatmaqdadır. Bu mənada müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə inkar edə bilməz. Bu məktəbin müdavimi olmaq da hər jurnalistin gücü çatası bir iş deyil. Çünki bu məktəbin dərs yükü də ağırdır, əməl yükü də!

Bəxtiyar Qaraca,
jurnalist, tədqiqatçı

Şirməmməd Hüseynov bizim üçün sadəcə müəllim deyildi. O, həm də, əsl mənada, ideoloqumuz idi. Dərsinin çox hissəsini milli-mənəvi dəyərləri bizim sosializmin bayağı ideyalarından korsalmış, dumanlanmış beynimizə, qanımıza-iliyimizə yeridirdi. Həmin dövrdə milli ideyalardan danışmaq əsl hünər, dəyanət tələb edirdi. Bu dəyanət isə Şirməmməd müəllimdə yetərincə idi.

Məmməd Əfşan,
jurnalist, şair-publisist,

Şirməmməd müəllimin prinsipi belədir ki, sən yalan danışma, ən böyük yanlışlığını belə boynuna al, bağışlanmaq imkanın qalsın.

Zeynal Məmmədli,
jurnalist

Azərbaycanın müstəqilliyi uğrunda son nəfəsinədək vuruşan Məhəmməd Əmin Rəsulzadənin məqalə və çıxışlarını min bir zəhmətlə toplayıb nəşr etdirməyi özünün mənəvi borcu hesab edən Şirməmməd müəllimi böyük mücahid Məmməd Əminlə yaxınlaşdıran ümumi cəhətlər çoxdur. Əqidə bütövlüyü, Vətənin müstəqilliyini hər şeydən üstün tutması, bütün məsələlərə ədalətlə yanaşmasıdır. Şirməmməd müəllim illərlə adı yasaq olunan azadlıq mücahidlərinin məqalələrini toplayıb, oxucuların ixtiyarına verməklə, onların da haqlarını özlərinə qaytarmış oldu. Hər cür təmtəraqdan uzaq, sadə və mənalı həyat tərzi sürən Şirməmməd müəllim gününü arxivlərdə keçirmiş, mətbuat tarixini ardıcıl araşdırmışdı..

Mehparə Axundova,
jurnalist

Azərbaycanda jurnalistika təhsilinin formalaşması və inkişafı da məhz onun əvəzsiz xidmətlərinin nəticəsidir. 60 il əvvəl ilk elmlər namizədi yalnız özü olduğu Jurnalistika fakültəsində indi çalışan müəllimlərin – elmlər doktoru, professor və dosentlərin hər birisi onun tələbəsi olub. 1969-cu ilədək Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən jurnalistika şöbəsinin fakültəyə çevrilməsi də onun əməyinin bəhrəsidir. O vaxtdan 1976-cı ilədək həm də fakültəmizin dekanı olan və qəbul imtahanları zamanı qəbul komissiyasında məsul vəzifə daşıyan Şirməmməd müəllim fakültəyə yalnız istedadlıların qəbul olunması naminə, bir çox təzyiqləri dəf etməyi bacarmışdı. Bu mübarizədə ona xarakterindəki düzlük, obyektivlik, milli qeyrət, zəhmətkeşlik və digər müsbət keyfiyyətləri yardımçı olub.

Maral Poladova,
jurnalist

Şirməmməd Hüseynovu yaşadan, onun ömrünü uzadan məhz onun yazıları, tədqiqat materialları idi.

Bax, belə kişi idi, bizim Ustadımız! Cümhuriyyət sevdalı insan idi. Peşəsini onun qədər sevən, işinə onun kimi bağlı olan ikinci insan tanımadım bu illərdə...

Elşad Paşasoy,
jurnalist

Dünyanın ən zəngin dili belə, sevimli müəllimim haqqında ürəyimdəkiləri ifadə etmək iqtidarında deyil. Şirməmməd Hüseynov Tanrının təkcə jurnalistlərə deyil, dünyadakı bütün azərbaycanlıların taleyinə yazdığı gözəl qismətdir. Bu gün Azərbaycanda söz və mətbuat azadlığı qanunla təsbit olunursa, bu gün Azərbaycanda vicdanlı jurnalist, vicdanlı olmağa çalışan jurnalist varsa, bu ilk növbədə Şirməmməd müəllimin xidmətidir.

Ülviyyə Əsədzadə,
jurnalist

Şirməmməd müəllim universitetin qəbul komissiyasında məsul vəzifə sahibiydi. Öz səlahiyyətlərindən qeyrətlə istifadə eləyirdi: universitetə yalnız istedadlı abituriyentlərin qəbul edilməsinə çalışırdı. Biz məzunlar öz aramızda deyirdik ki, bəzi ziyalıların mənəvi təmizliyi südə bənzəyir, içərisinə bir zərrə çirk düşən kimi çürüyür. Şirməmməıd müəllimin vicdanı isə pas tutmayan metal kimidir, bütün vəziyyətlərdə saf və parlaq qalır.

Teymur Xəlilov,
jurnalist

Şirməmməd müəllim özündən sonrakılara böyük salnamələr, sanballı tədqiqatlar, parlaq irs bağışladı. Belə demək mümkündüsə, Şirməmməd Hüseynov öz ömrünü Azərbaycana və azərbaycanlılara bağışladı.

Nadir Yalçın,
jurnalist

Müəllim – öyrədən deməkdir. Amma hər öyrədənə də müəllim deyilmir. Əsl müəllim o şəxsdir ki, onun öyrətdikləri öyrənənlər üçün həyat kredosuna çevrilir. Şirməmməd Hüseynov bu mənada, həqiqi öyrədəndir. O, mənim üçün həm də həyat müəllimidir.

Samir Xalidoğlu,
jurnalist

Şirməmməd Hüseynov cəmiyyətin uzaqvuran silahı idi. Fikir döyüşlərində həmişə qalib gəlməyə öyrəşmişdi. Elə başqaları da onun hər hansı bir mübahisə zamanı nəticədə qalib gələcəyinə inanırdı. Çünki o, mənəvi mühitinə xalqın bütün potensial imkanlarını cəmləyə bilmişdi.

Xələfli Əlirza,
jurnalist

Mən universitetdə oxuyanda Şirməmməd Hüseynov artıq universitetin ən sayılıb-seçilən müəllimlərindən idi. O zamanlar çox ciddi, çox məsuliyyətli bir iş sayılan qəbul imtahan komissiyasının məsul katibi olmuşdu, dekan, kafedra müdiri vəzifələrini daşıyırdı. Amma bütün bunlarla belə mənə bircə kəlmə söz demişdi: "Universitetdə öz biliyindən başqa heç nəyə arxayın olma!" Mən onun nə demək istədiyini yaxşı bilirdim. Ali məktəbdə oxuyan övladlarına da eyni sözü demişdi. Ona görə də bizim yaxşı oxumaqdan başqa əlacımız yox idi. Əmim ailədə, qohum-əqrabaya, dostlarına münasibətdə ideal bir insandır. Onun bu xarakterinin az bir hissəsinə yiyələnmək bəs edər ki, sən də seçiləsən, hörmət sahibi olasan.

Yusif Hüseynov

I HİSSƏ

ƏSƏRLƏRİ

1.1.Kitabları

1981

1. Azərbaycan bolşevik mətbuatı: Dərs vəsaiti / Şirməmməd Hüseynov; Elmi red.: Q.Xəlilov; Rəyçi: Ə.Nəbiyev; S.M.Kirov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Universiteti. – Bakı: ADU, 1981. – 100 s. – *Mətn kiril qrafikasındadır.*

Kitabın içindəkilər: **Ön söz; I Fəsil.** ***Azərbaycanda fəhlə mətbuatının meydana gəlməsi:*** 1.Ənənələr; 2.Leninçi "İskra", "Nina" mətbəəsi. Azərbaycanda proletar mətbuatının yaradılmasında onların rolu; 3.İlk addımlar; 4.Azərbaycanda ilk bolşevik qəzeti. – **II Fəsil.** ***İnqilabi mübarizənin təşkilatçısı (1905-1907):*** 1."Kütləvi təsir"in qüdrətli vasitəsi; 2.Leqal bolşevik nəşrləri: "Dəvət-Qoç"; "Prizıv"; "Təkamül"; "Orer" ("Günlər"); 3.Gizli mətbuat orqanları.

1983

2. Azərbaycan bolşevik mətbuatı: dərs vəsaiti / Şirməmməd Hüseynov; elmi red. Q.Xəlilov; rəyçilər Ə.Nəbiyev, M.Mehdiyev; Azərb. SSR Ali və orta İxtisas Təhsili Nazirliyi. – II hissə. – Bakı: S.M.Kirov ad. Azərb. Dövlət Un-ti, 1983. – 97, [3] s. – *Mətn kiril qrafikasındadır.*

Kitabın içindəkilər: **Ön söz:** Azərbaycan bolşevik mətbuatı irtica illərində (1907-1910-cu illər); "Bakinski proletari"; "Yoldaş"; "Гудок"; "Бакински рабочи"; "Волна" jurnalı.

1987

3. Azərbaycan dilində ilk bolşevik nəşrləri: dərs vəsaiti / Şirməmməd Hüseynov; elmi red. T.Rüstəmov; rəyçilər: M. İsmayılov, A.Abbasov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti. – Bakı: ADU, 1987. – 80, [2] s. – *Mətn kiril qrafikasındadır.*

Dərs vəsaitində partiya-sovet jurnalistikasının ayrılmaz tərkib hissəsi olan Azərbaycan bolşevik mətbuatının təşəkkül tarixi, onun yaradılması üçün vacib olan obyektiv və subyektiv amillər nəzərdən keçirilir.

Kitabın içindəkilər: **Tarixi köklər:** Ənənələr; "Əkinçi" və onun jurnalistlik irsi; Azərbaycanda milli sosial demokrat-fəhlə mətbuatının ilk addımları; Azərbaycanda ilk bolşevik qəzeti "Hümmət"; Anadilli ilk leqal bolşevik qəzeti.

1988

4. Həqiqət və ədalət carçısı / Şirməmməd Hüseynov; rəyçi M.İsmayılov; [red. E.Məmmədyarova; rəssamı X.Mirzəyev; bədii red. V.Martınov]. – Bakı: Azərnəşr, 1988. – 190, [2] s. – *Mətn kiril qrafikasındadır.*

Kitab Azərbaycan mətbuat tarixinin bu vaxtadək az öyrənilmiş 1903-1907-ci illər dövrünün tədqiqinə həsr edilmişdir. Müəllif geniş ədəbiyyat, zəngin faktik material və tarixi sənədlərə istinad edərək Azərbaycanda yeni tipli proletar mətbuatının yaradılması üçün vacib olan obyektiv və subyektiv amilləri nəzərdən keçirir, "Hümmət" təşkilatının nəşr etdiyi ilk vərəqə, intibahnamə və mətbuat orqanlarını geniş tədqiq-təhlil edir, varislik əlaqələrini aydınlaşdırır.

Kitabın içindəkilər: Ön söz; Mətbu irsimizdən səhifələr; Jurnalistikamızın "Əkinçi" məktəbi; Yeni hərəkat, yeni mətbuat; "Hümmət": El bir olsa dağ oynadar yerindən; Açıq döyüş meydanında; "Dəvət-Qoç"; "Təkamül"; "Yoldaş"; Azərbaycan bolşevik mətbuatı tarixinin tədqiqinə dair; Məxəzlər.

1996

5. Müstəqilliyin çətin yolu... Biz hara gedirik? / Şirməmməd Hüseynov; Red.: E.Məmmədyarova. – Bakı: Azərnəşr, 1996. – 328 s. – *Kitabın sərlövhəsi latın qrafikasında verilmişdir.*

Kitaba müəllifin 1988-1993-cü illərdə yazılmış və respublika mətbuatında dərc olunmuş yazılarının bir qismi daxil edilmişdir.

Kitabın içindəkilər: Bəxtiyar Vahabzadə. Öz gözü ilə görüb öz ağlı ilə düşünmək. – Azərbaycan mətbuatında Novruz: Bahari-hürriyyət. Müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı**. – *E.İ. Sultanzadə.*** Şəkidən; Hümuneyi-imtisal bir gün. – **Müsəlman həyatı:** Hacı Məmmədsadıq Əliyevin vəfatı. Müstəqilliyin yolu; Dərd həmin dərddir. – ***N. Nərimanov.*** Göz yaşı tökdürən cəzirə; Nargin Cəzirəsi; Nargin cəzirəsi barəsində yoldaşımız N. Nərimanovun dumada dediyi sözlər. Dərd həmin dərddir. – ***M.Ə. Rəsulzadə.***

Nə böyük bayram!. İstiqlal bütün xalqın əsəridir!. – ***Fətəli Xan Xoylu.*** Azərbaycan istiqlalının elanı. Xalqın ruhundan doğan hadisə; Milli Cümhuriyyətimizin ikinci paytaxtı: Bakının azad edilməsi münasibətilə M.Ə. Rəsulzadənin İstanbuldan göndərdiyi təbrik teleqramı. – **Fətəli Xan.** Qafqaz İslam ordusu komandanı sədaqətli Nuru Paşa həzrətlərinə. – ***Fətəli Xan.*** Şərq orduları qrupu komandanı Xəlil Paşa həzrətlərinə. Tariximizin iftixar səhifələri 1884 – 31 yanvar – 1991; Bir kərə yüksələn bayraq...; Tarixin ibrət səhifələri. – ***Ömər Faiq Nemanzadə.*** Nə etməliyik?. İslam dini və ana dili; Müstəqillik çətin yoldur; Şeyx Şamilə hörmət və məhəbbət. – ***M. Ə. Rəsulzadə.*** Fitnə və provokasiya. Yetmiş üç il sonra: **Azərbaycan İstiqlaliyyəti haqqında anket:** Nəsib bəy Yusifbəyov; Həsən bəy Ağayev; Axund ağa Ağaəlizadə; M.Ə. Rəsulzadə; Doktor Qara bəy Qarabəyov; Sosial-demokratlar; "Hümmət"; Sosialist inqilabçılar; Sol sosialistlər; Aslan bəy Səfikürdski; Həmkarlar ittifaqları şurası; J.J. Jurkovski; V. N. Kujim; Polkovnik Barberis; B. Malaççixan; "Daşnaksütyun" partiyası; İki tarix. Dövlət quruluşumuzun milli dirçəliş günündə düşüncələr; Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində: Nuxadan."Qəzet gərək xalqın aynası olsun"; "Əkinçi"dən öyrənək: Daxiliyyə. Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində: Nuxadan teleqram; Tərəqqiyunlara bəşarət. Şəxsiyyət və milli dəyərlər: Tarix nə deyir?: İthaf; Yazacağım kitaba ithaf əvəzinə nəzirə. Sağ əliniz başımıza!; "Кавказски календар"da yazılmışdır; Federasiya öldü, sonra?; Yeni avazla köhnə bayatılar kimə gərəkdir?; Sağlam birlikdən qüvvət doğar; Milli müqəddəsimiz; Amerikaya, yoxsa Türkiyəyə çatmaq?; Niyə "mübarizəsiz" və "düşmənsiz" keçinmək olmur?; Ayılmaq, iş görmək vaxtı deyilmi?. – ***Məmməd Əmin.*** Qəribə bir boykot. Bədbəxtliyə niyə ortaq olmalıyıq?; Torpaq kəndlinin, bəs məhsulu?; Gedirdilər və yenə də gedirlər; Siyahıda yerlər dəyişir: Allah sonrasından saxlasın?!; Özününkü və özgə; İmperiya dağılır, ruhu qalır; Türkiyəyə çatmaq asandırmı?; Kim kimi soyur?; Açılıb-bağlanan pəncərələr, qapılar. – ***Məmməd Əmin Rəsulzadə.*** Svoznyak. Sahiblik yox, maya yalan, məhsul zay; Hansı qorxuludur: İslam ya kommunizm...?; Borcdan çox danışılır, alacaqdan yox. Niyə?; Bu işlərin axırı necə olacaq?; Əcəb bərabərlik, əcəb ittifaq imiş; Ölkə irəliləyir, amma hara?; "İpəkçi"ni maraqlı və oxunaqlı edən nədir?; Kiminə matəm, kiminə bayram; Tora salırlar, ya düşürük?; Rüşvətxorluq bəlası bizə haradan gəlib?; Millət sizə minnətdardır!; Hədə-qorxu, yoxsa real təhlükə?; "Oyun" nə qədər çəkəcək?; Biz hara gedirik?; Vertolyot qəzaya uğrayıb, yoxsa vurulub?; Qətiyyət və cəsarət vaxtıdır; Hökmü zaman

verir, Moskva və Tehran yox!; Ümidimiz, şərəfimiz, namusumuz – ordumuz!; İttifaq dövlətinin fatihəsi verildi. Sonra?..; İlan vuran ala çatıdan qorxar; Şeytan karxanası işləyir; Ömrü tarixə çevirək; Əməkdaşlıq, soymaq və soyulmaq; Siyasi rejissorluq asan iş deyil; Təki yağışdan çıxıb, yağmura düşməyək; Keçmişimiz, gələcəyimiz...; Məmməd Əmin Rəsulzadə: Yol Təəssüratı (Urmiya). Zaman keçsə də bəla haman bəladır: Daşnaksütyunçuya rəddiyyə. Böhran çox dərindir ondan asanlıqla çıxmaq olmayacaq; İnsaf dinin yarısıdır. – ***Məmməd Əmin Rəsulzadə.*** Bir qocanın müsibəti. İstiqlaliyyət havası və məsuliyyəti hiss olunurmu?; Ordunun taleyi necə olacaq?; Yelena qan-qan deyir; Şərəfli, məşəqqətli istiqlal yolu; Tərəqqi yoxsa fitnə-fəsad?. – ***Məmməd Əmin Rəsulzadə.*** Möbcibi-heyrət. Fəda ol – Qədr gör!. – ***Məhəmməd Əmin.*** Mütaliələrimdən. Çürük zəmində birlik olmaz; Nə qədər dözmək olar?; Kimə sahiblik edirik: Diriyə, yoxsa ölüyə?: Əhməd bəy Ağayevin nitqi; Qara bəy Qarabəyovun nitqi. Milli qeyrət və milli tərəqqi diyarı – Şəki: Məşədi Mehdi Sadıqov; Həsən bəy Zərdabi; Əhməd bəy Ağayev; M. Ə. Rəsulzadə; M. Ə. Rəsulzadə; M. Ə. Rəsulzadə; Üzeyir bəy Hacıbəyov; M. Ə. Rəsulzadə; Ömər Faiq. Dövran yeni, bəlalar köhnə və ya dövlətçilik əxlaqı haqqında üç-dörd söz; Diktaturadan demokratiya yarana bilməz; Ermənilər indi də Türkiyəni çalxalamaq istəyirlər; Yenə də İslam fundamentalizmi və saman çöpü haqqında; Tariximizin ibrətamiz səhifələri. – ***Xəlil İbrahim.*** Xalq istəyir. Zamanın sınağından çıxdı "Müsavat". – ***Məmməd Əmin Rəsulzadə.*** Oktyabrın 17-si; Şəkili Hacıbala bəyin vəsiyyəti. – ***Məmməd Əmin R-zadə.*** 1906: Yenə də müsibətmi!?; 1992: Bəli, yenə də müsibət!. Əsrin əvvəlindən bugünümüz görünür. – ***Marzadə.*** Hər yandan. – ***Məmməd Əmin Rəsulzadə.*** Türk birliyi reallaşacaqmı?. – ***Gəncəli hacı Məhəmmədsadıq.*** Müsəlman idareyi-ruhaniyyələri. – ***Əhsənül-Qəvaid.*** 1876 – Körpü sudan uzaq qalıb. 1992 – Körpü sudan yenə də uzaqdır. Vətənin iki mücahid övladının ilk görüşü. – ***M. Əmin.*** Təbriz, Səttarxanla mülaqa. – ***Məmməd Əmin Rəsulzadə.*** Yanğılı ürəyin fəryadı: Cavanlarımıza. Mustafa bəy və Əfruz xanımın faciəsi. – ***Mustafa bəy Əlibəyov.*** Açıq məktub. İslama qarşı yeni sipər axtarırlar; Lovğalıq və milli təkəbbür nəyə və kimə gərəkdir?; O, Vətəni bütöv görürdü. – ***Məmməd Əmin Rəsulzadə.*** Səttar xan. İpək yolu niyə od tutub yanır?; Dosta təşəkkür, zindandan qaçış. – ***Rəsulzadə Məmməd Əmin.*** Stalinə məktub. İ. V. Stalin. Dəfn mərasimindən kiçik bir xatirə: "Əkinçi" – Allah göstərməsin!. Deyəsən zaman göstərəcək!; Demokratiya şuarı və real həqiqət; Eşidən qulaq, nəcabət, dərin düşüncə gərək. – ***Məmməd Əmin Rəsulzadə.*** Heyvanların konserti. – ***Məmməd Əmin***

Rəsulzadə. İran – Azərbaycan əlaqələri tarixindən səhifə: Bizim məramımız. Deyəsən "Siyasi gömrükxana" da işə düşür; Tarixin dərsləri və bugünkü halımız; Baş aparıb sümük qaytarırlar! Məqsəd nədir?; İslamla vuruş hələ qabaqda imiş; Tərəqqi üçün azadlıq və istiqlal gərəkdir; "Müsavat"da müsahibə; 28 may və istiqlal təzadları; İkinci təcrübəni qoruya biləcəyikmi?; Azərbaycan istiqlalı dramı...; İçimizi, çölümüzü düzəldək!; İşığımız sönməyəcəkdir.

2004

6. Milli haqq və ədalət axtarışında: (1988-2000) / Şirməmməd Hüseynov; Red.: Ü.Hüseynova. – Bakı: Adiloğlu, 2004. – 420 s.

Kitaba müəllifin 1988-2000-ci illərdə yazdığı və respublikanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün çox mühüm problemlərinə həsr olunmuş, məqalə, müsahibə, çıxış və s. daxil edilmişdir. Burada həmçinin vaxtilə işıq üzü görməmiş, adları və yazdıqları qadağan edilmiş istiqlal mücahidlərinin, görkəmli qeyrət və qələm sahiblərinin bir sıra əsərləri ilk dəfə oxuculara təqdim edilmişdir.

Kitabın içindəkilər: **Ön söz**. – ***C.Həsənli***. Mənəviyyat adamı. – ***Bəxtiyar Vahabzadə***. Öz gözü ilə görüb öz ağlı ilə düşünmək. – ***F.Mehdi***. Dövrün, zamanın canlı salnaməsi; Düzlük; Keçmişin ibrət dərsləri; Türk nəğməsi; "Təkamül" qəzetinin redaktoru; Yazıçı Əfqana və "Azərbaycan"ın bütün oxucularına məktub; 2-ci səhifənin qonağı Şirməmməd Hüseynovdur; Müstəqil dövlətə azad jurnalistika gərəkdir; Sual-cavab; Sovet "möcüzəsi" qaldıqca kefi saz da olacaq, ac da; Əyri otur, amma düz danış; Siyasət oyun deyil, sənətdir; "Qarışıqdır hələlik millətin istedadı..."; "Türkün dostu türk özüdür"; İxtiyara bu qədər ixtiyar vermək olarmı?; Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərova; Tənəzzül nə qədər davam edəcək; Qafqazda ilk türk məktəbi. – ***Ömər Faiq Nemanzadə***. Şəkidə; "AzərTAC" sözü haradan peyda olmuşdur?; Gələcəyin lənətindən qorxmaq lazımdır; Qazanılmış şöhrəti itirmək faciəsi də var; Varislik, qoçaq və maymaq "millətpərəstlər"; Dərd həmin dərddir; Bizim mətbuat; Qələm dəllalları, qəzet həşəratları; "Mətbuatın hörmət və əzəmətini bilək, qoruyaq"; Məkrli yalan və böhtan kimə gərəkdir?; "Ehtiyatlı olmaq lazımdır" – kimdən?; İnandıra biləcəyikmi?; Keçmişdən səhifələr; Möcüzə; Şəki; Köhnə hamam, köhnə tas; Hər vızıldayandan bal arısı, hər gədadan bəy olmaz; Tariximizin ibrətamiz səhifələri; Xalq istəyir; Yaddaşlarda yaşayan

